# FƏDAİLƏR



Manya Səxavətqızı

Manya Səxavətqızı

# FƏDAİLƏR

QAF

MƏCBURİ NÜSXƏ
№

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115985

Bakı-2020

63.3(5Aze)622,8+84(5Aze)
S 42

**Redaktor: Gülnarə Sadiq**
**Korrektor: Gülnarə Sadiq**
**Manya Səxavətqızı**
**Dizayner: Gülnarə Əliyeva**

*Kitab "Vətən mücahidləri" və "Zərif Kölgələr" layihələri çərçivəsində çap edilmişdir.*

**Manya Səxavətqızı. Fədailər**
**"Orxan" NPM. Bakı-2020 səh 248**

*Manya Səxavətqızı 1988-ci il sentybrın 1-də İmişli şəhərində anadan olub. "Yazılmayan sətrlər darıxır", "On üç yarpaq" kitablarının müəllifi "Vətən mücahidləri" layihəsinin həmrəhbəridir.*

*Şeirləri və məqalələri müntəzəm olaraq dövrü mətbuatda dərc edilir.*

*Ailəlidir, iki övladı var*

*İSBN 978-9952-37-447-6*



## ÖN SÖZ

Vətən yoxsa, Şəhid olmaz,
Şəhid yoxsa, şahid olmaz.
Hər oğuldan igid olmaz,
İgid bərkdən-boşdan keçər!

Bəli, Vətən, onun uğrunda canını fəda edənlərin sayəsində vətəndir...

Qədim oğuz türklərində Vətən yolunda şəhid olanlara-«Qəzan mübarək, əzan mübarək!» söyləyərdilər.

Yadıma gəlir böyük şairimiz X.R Ulutürkün oğlu, tələbəmiz Təbriz Şuşada şəhid olanda başsağlığı verənlərə deyirdi: «Bu gün çox mübarək gündür, Təbrizim vətən yolunda şəhid olub, sevinin, deyin, gülün».

Böyük türk şairi Mehmet Akif Ərsoy şəhidlik zirvəsinə belə önəm verirdi:

«Vətən üçün ölməkdisə qismətim, belə qismətin əllərindən öpərəm».

1915-ci ildə Çanaqqala döyüşlərində, Türkiyə ölüm-dirim savaşında olanda İstanbulda övladını yola salan ana onun başına həna yaxıb deyirdi: «Get oğlum,get, mən səni Vətən yolunda qurban demişəm». Övladı analar doğacaq, Vətən, Torpaq isə doğulmur.

Azadlıq öylə bir afət ki,tək Vüqar,
Qan tökülmədikcə, gəlməz üzə o işvəkar.

-Deyirdi bir zaman Cavid əfəndi.

Yaxud,

Ey şəhid oğlu, Şəhid istəmə məndən məqbər,
Sənə ağuşuna açmış duruyor Peyğəmbər.

-deyə şəhidliyin zirvəsini tərənnüm edirdi M.A.Ərsoy.

Adında «can» olan Azərbaycanımız, Vətən yolunda çox Şəhidlər verib və bu gün də bütövlüyümüz uğrunda Şəhidlər verir.

Bu qədər Şəhidlər verməyimizə baxmayaraq, yenə də bu yurdun yolunda qurban verməyə hazır milyonlarla övladlarımız var. Biz onun sübutuna Aprel döyüşlərində, Tovuzda baş verən döyüşlərdə şahid olduq.

Bu baxımdan Manya Səxavətqızının Şəhidlərimizə həsr etdiyi, ürək ağrısı ilə qələmə aldığı «Fədailər» adlı bu kitab çox təqdirə layiqdir.

Kitabı oxuduqca düşünürəm ki, Vətən sevdalı Manya xanım hər bir misranı ürəyinin süzgəcindən keçirib, üstündə yarpaq kimi əsib.

Şeirlərinin birində Manya xanım deyir:

Sanki tər çiçəklər al rəngi sevib,
Torpağa çilənən Şəhid qanından.

Yaxud da,

Vətənin dərdinə ağlayan Şəhid,
Düşmənin köksünü dağlayan Şəhid,
Cənnətdə ruhunu saxlayan Şəhid,
Şəhadət zirvəsin o məskən seçər
Torpaq şəhidlərin qanını içər.

Nə qədər bənzərsiz poetik bir bənzətmə...

Manya xanımın bu kitabı bu gün gəncliyin vətənpərvərlik tərbiyəsində çox böyük əhəmiyyətə malikdir.

Allahın bir adı Yaradandır! Yazın, yaradın Manya xanım.

Manya xanım, dünya yaradanları sevir!

Sonda:

Zülm ilə axan qanlar,
Axıdanı boğar bir gün.
Şəhid olub düşən canlar
Nur içində doğar bir gün.

İnşallah, o günü görərik. Onda siz sevinc göz yaşları ilə qələbə soraqlı misralar dilə gətirərsiniz!

Qəzanız mübarək! Əzanız mübarək, Manya xanım!

***Hörmətlə: Respublikanın Əməkdar artisti ADMİU-nin dosenti, bədii qiraət ustası Ağalar Bayramov.***

22.08.2020





**Müəllifdən**

***Hər insanın ruhuna toxunan, onun düşüncələrinə qarışan duyğular var. Bu duyğulara biz insanlar müxtəlif adlar veririk - sevgi, qayğı, arzu, ümid, hətta bəzən kin, nifrət. Mənim ruhumda hakimiyyət quran duyğu Vətən sevgisidir. Bu eşqin həm qürurunu, həm də kədərini illərdirdi ki, qəlbimdə daşıyıram. Ruhumun «şəhid» adlı bir fəryadı var. Vətən sevgisinin böyüklüyü qədər şəhid həsrətim də günbəgün böyüyür. Yaradıcılığım boyu göz yaşları içində bu həsrətdən yazmağa cəhd edirəm.***

***Vətənin, şəhid analarının göz yaşlarını ruhum alovlana-alovlana misralarımda hiss edərək və hiss etdirərək yazmışam. Məhs bu şeirlərlə şəhid yaxınlarının dərd yoldaşına çevrilmişəm. Bəzən yuxularımda haqqında yazdığım şəhidlərin təşəkkürünü, yazmadığım şəhidlərin gileyini eşitmişəm. Bunları yazarkən isə bir məqsədim olub, şəhidlərimizi unutmamaq və unutdurmamaq. Tarix boyu yaşayan qəhrəmanları biz kitablardan oxuyub tanımışıq. Mənim də arzum qəhrəman şəhidlərimizi sətirlərdə, səhifələrdə yaşatmaqdı. Rahat uyuyun şəhidlərim, qəlbimdə və qələmimdə yaşayacaqsınız.***

## ALIN MƏNİ DÜNYANIZA

Param-parça oldu qəlbim,
Calandı gözümdən dərdim.
Hər şəhidə bir qəlb yandı
Hər şəhidlə bir qəlb yandı.

Əsən külək həm məzara,
Həm dünyaya sığal çəkdi.
Şəhid vətən torpağına
Həm ruhuma bir dərd əkdi.

Cənnətindən boylanan ruh,
Ey müqəddəs şəhidlərim.
Məni alın bu aləmdən,
Dünyanıza qonaq gedim.

Nə etsəm də çatammıram,
Uzana qalıb əllərim.
Mən də vətən ocağında
Şəhadət çiçəyi dərim.

23.07.2019





## ŞƏHİD SEVGİSİ

Torpağın gözündən yaşı içirəm,
Bəlkə susuzluğu yata qəlbimin.
Min kədər əkirəm, qəmi biçirəm,
Bir ucu, bucağı yox bu dərdimin.

Müqəddəs kəlməni duyduğum zaman,
Canlanır bir nakam həyat gözümdə.
Bu dərdi daşımaq ağırdır yaman,
Bir alov alışır bu qəlb içində.

Daş olan baxışlar, qəlbdə dağ olur,
Ovutmaz ürəyi solğun arzular.
Gözlər göy üzü tək yaman tez dolur,
Yanağa iz salır qəmli duyğular.

Ah, vətən şəhidi, vətən igidi,
Bilsən, neçə ürək yanır səninçün?!
Sən vətən yolunda canını verdin,
Göstərdin dünyaya vətənin gücün.

Sənin can verdiyin ana torpağa,
Bahar da yetişir, qış da yetişir.
Bu vətən sizinlə dönüb bir bağa,
Bir vətən qoxulu çiçək bitirir.

Sanki tər çiçəklər al rəngi sevib,
Torpağa çilənən şəhid qanından.
Vətənim neçə mərd oğul itirib,
Onlar bu vətənçün keçib canından.

Sevin, bu vətəni şəhidlər kimi,
Onların sevgisi müqəddəs olur.
Vətən eşqi tutur duyan qəlbini,
O eşqlə bu vətən ayaqda durur.

22.07.2019





## VƏTƏNSİZLƏMİŞƏM

Vətən, vətənsizləmişəm,
Həsrətindən dolub qəlbim.
Hər dərdimə sinə gələn –
Dərmanı yoxmu bu dərdin?

Bu sükutun bağırışı,
Ruhumu titrədir, vətən.
Şuşanın küsgün baxışı,
Çökdürür ruhumu, vətən.

Hər vətəni anan zaman,
Dil açır qəlbimin ahı.
Uğruna verilən canlar –
Qoynun şəhid düzərgahı...

Vətən, göz yaşım çilənir,
Həm daşına, torpağına.
Köksüm qanıma bələnir,
Qəm düşüb könül bağıma.

Kaş ki, çəkib ala bilsəm,
Səni düşmən əllərindən.
Vətən, səni azad görsəm,
Əsər qalmaz dərd-sərimdən.

30.10.2019

## ŞƏHİDLƏR

Cahanın sükutu pozulan zaman,
Bu günəş göylərdə sozalan zaman,
Bir qəlbə şəhidlik yazılan zaman –
Şəhidlər Allahın əlindən tutar
Onlar bu dünyanı o an unudar.

Vətənin dərdinə ağlayan şəhid,
Düşmənin köksünü dağlayan şəhid,
Cənnətdə ruhunu saxlayan şəhid,
Şəhadət zirvəsin o məskən seçər
Torpaq şəhidlərin qanını içər.

Vətənin uğrunda qurban gedən can,
Vətən harayına hər vaxt deyən «can»,
Səni yaşadacaq bu Azərbaycan,
Necə ki, yaşatdın vətənin adın,
Şəhidim, vətənlə çəkilir adın.

04.04.2020





## BƏLKƏ SİLAHLAR DA SUSA...

Saçın yolur vətən daşı,
Sızlayır bağrının başı,
İtirdik neçə qardaşı
Şəhid deyib yandı elim,
Büküldü elimtək belim.

Dırnağın çəkdi yağılar,
Sükutu pozdu ağılar,
Dağılar, dünya dağılar
Əgər ana fəryad etsə
Dərdi-səri şəhid olsa.

Acıları büküm-büküm,
Ruhumu cismimdən söküm,
Durmadan göz yaşı töküm
Kaş dünyanı sel, su basa,
Susa, silahlar da susa.

26.04.2020

## YAŞASIN AZƏRBAYCAN

Vətən üçün bir oldu,
Yenilməz məğrur ordu.
Keşiyində mərd durdu,
Şəhid oldu neçə can,
Səninçün, Azərbaycan!

Heçə sayıb canların,
Axıtdılar qanların.
Gənc yaşda solanların,
Beşiyi ol, söylə can,
Qürurlan, Azərbaycan!

Canımız sənə fəda,
Eşitsin düşmən, gəda.
Sən zəfər çal dünyada,
Qurbandı sənə hər can,
Var ol, sən, Azərbaycan!

Bayrağım dalğalansın,
Düşmən baxıb hey yansın.
Zəfər marşı çalınsın,
Ürəkdən deyək can, can,
Yaşasın Azərbaycan!

08.06.2016





## ALLAHA UCALANLAR

Ömrün Vətən adlı kədər daşından,
Görənlər ürpənib uzağa qaçar.
Torpağa çilənən hər göz yaşından
Bir şəhid boylanar, bir çiçək açar.

Vətən torpağının cadar üzünü,
Damlayan qan tutub lap hamar edib.
Qəlbimə dağ olan şəhid sözünü
Duyanlar qəlbini köksündə didib.

İndi mən ağlayım bir az gəncimə,
Bir az da vətənlə qocalanıma.
Ağlayım sağalmaz şəhid dərdimə
Allahın yanına ucalanıma.

13.06.2020

## NAKAM QALAN HƏYATLAR

Cavan yaşda soldular,
Dərddən nakam arzular.
Bu vətən, torpaq üçün,
Şəhid oldu oğullar.

Neçə tale qaraldı,
Gen dünyalar daraldı.
Yarın gözləyənlərin,
Gözləri yaşlı qaldı.

Ana qəlbi dağlandı,
Başa qara bağlandı.
Toy-nişan olan evdə,
Oğul yası saxlandı.

Ata qəddi büküldü,
Gözlərdən qan töküldü.
Şəhid olan oğullar,
Al bayrağa büküldü.

Ağlar qaldı bacılar,
Qəlb dağlar bu acılar.
İşığı sönən evdə,
Çətin sabah açılar.





Şəhid xəbəri alan,
Qardaş dayaqsız qaldı,
Götürüb qardaş nəşin,
Son mənzilə apardı.

Gözü yaşlı balalar,
Eşitdilər ağılar.
Onları yetim qoydu,
Soysuz, mənfur yağılar.

Qəlblər alışdı-yandı,
Gedənlər cavan candı.
Hər kəs şəhid olmağı,
Özünə bir borc sandı.

10.06.2016

## «ŞƏHİD» SÖZÜ

Kədərinə qurban şəhid xanımı,
Fəryadın yandırır inan canımı.
Bitən həyatların nakam arzusu
Durdurur dünyanın dönən çarxını.

Ağarır başında günbəgün teli,
Oğul deyib yanır ağzında dili.
Öz əliylə oğul qoyub məzara
Bükülüb bu dərddən çox ata beli.

Titrədir ruhumu ana naləsi,
Ocaq sönüb sanki yoxdur kimsəsi.
Nə dərdlər yaşayıb bu zalım dünya
Olmayıb, İlahi, hələ beləsi.

Sızıldadar daş baxışlar qardaşı,
Dərdli-dərdli axır qəlbdən dərd yaşı.
Bundan sonra o bir lal tək susacaq
Daha yoxdur onu duyan sirdaşı.

Yazıq bacı "qardaş" deyib ağlayar,
Ürəyimi onun dərdi dağlayar.
Ağlını itirən divanə kimi
"Qardaş deyib" gəzər, hey soraqlayar.





Belə baxma, susqun şəhid balası,
Qəlbimizin oldun dərdi, yarası.
Sən hər zaman bunları duyacaqsan
«Qəhrəman tək şəhid olmuş atası».

Unutmayaq gedən cavan canları,
Biz qoymarıq yerdə qalsın qanları.
Gözümüzü yaşlı qoyan düşməni
Dərdə salaq, ağlar qoyaq onları.

03.04.2017

F. Köçərli adına
Respublika Uşaq
KİTABXANASI
İNV. № 115985

## QURBAN OLUM AY ANA

Ürəyinə qurban olum, ay ana,
O ürəyin dönmüş indi al qana.
İllərdi ki, fəryadını duyuram
Oğul deyib, ağlarsan yana-yana.

Çox istərəm qəlbindəki qəm yükün,
Bircə-bircə əllərimlə mən söküm.
Gözlərindən axan yaşı görəndə
Bu qamətim olar lap büküm-büküm.

Qurban sənə məğrur şəhid anası,
Ağlamaqdan solub gözün qarası.
Bilirəm ki, heç bir loğman sağaltmaz
Bir ananın bala adlı yarasın.

26.09.2018





## ŞƏHİD ATASI

Kədər çöküb bir atanın gözünə,
Qəm iz salıb onun nurlu üzünə,
Həsrət qalıb oğlun "ata" sözünə
Sağalmazmış ürəkdəki yarası,
Dərdinə qurbanam şəhid atası.

Əyilər bu dərddən qəddi, qaməti,
Bala dağı ataya olur çətin,
Görmək üçün balasının surətin
Hey yol gözlər gözlərinin qarası,
Dərdinə qurbanam şəhid atası.

Onun qəlbi indi para-paradır,
Bala dağı sağalmayan yaradır.
Bir məzar var oğul evi oradır
Daşa dönüb gözün ağı-qarası,
Dərdinə qurbanam şəhid atası.

25.01.2017

## İMİŞLİ TORPAĞININ ŞƏHİD ÖVLADLARI

Hər insanın dünyaya gəldiyi məkan və böyüdükcə həyatı dərk etdiyi mühit onun həyatında böyük rol oynayır. Əbəs yerə deyilməyib ki, «vətəni sevmək imandan gəlir». Həyatı dərk etdiyim gündən Azərbaycanın işğala məruz qaldığını, xalqımızın yaşadığı ağır günləri duyaraq böyüdüm. Hər dəfəsində «Şəhidimiz var» kəlməsini eşidəndə ürəyim titrədi. Anama «Şəhid kimdir?» sualını verərkən anamın yaşlı gözləri ilə qarşılaşırdım. O zamanlar çox anlamasam da, hiss edirdim ki, «şəhid» sözü izahı böyük olan bir sözdür.

Artıq böyüyüb, məktəbə getmək çağına gəldim. İlk məktəbə qədəm qoyduğum gün məktəb direktorumuz «İmişli rayon Buludlu kənd Şəhid İlham Allahverdiyev adını məktəbə ilk qədəm qoyan şagirdləri salamlayıram» deməsi ilə mən sanki yuxudan oyandım. Ondan sonra hər gün bir şəhidin adını daşıyan məktəbə getməyin qürurunu duydum. Çünki həmin şəhid ilə bütün İmişli və eləcə də bütün Azərbaycan qürur duyurdu. Şəhidin əbədiyaşar olduğunu mən Allahverdiyev İlham Yusif oğlu ilə öyrəndim. İllər ötdü mən böyüdüm mənimlə birgə şəhid dərdim də böyüdü...

1992-ci ildə Ağdərə uğrunda Allahverdiyev İlham Yusif oğlunu şəhid verən İmişli camaatı 1994-cü ilin soyuq 18 yanvar günü Atayev Azər Əşrəf oğlunun şəhid xəbərini aldı. Ürəkləri yenə bir şəhid xəbəri yandırdı. Bu dəfə İmişlinin Göbəktala kəndinə şəhid xəbəri atəş kimi düşdü. Atayev Azər Əşrəf oğlu vətən torpağı uğrunda can verib əbədi İmişli torpağının qoynuna sığındı.

Vətənsevər övladların böyüdüyü İmişlinin adını hər zaman qeyrətli, məğrur, igid oğulları ucalara qaldırıb. Vətən torpağının dar günündə vətən harayına hay verən oğullar 2016-cı ildə Aprel döyüşlərində də vətəni darda qoymadılar. Tarixin yaddaşına «Şanlı





aprel», «dörd günlük müharibə» kimi həkk olunan o döyüşlərdə İmişlinin Qaralar kəndindən bir qəhrəmanın şəhid olduğunu öyrəndim. Həmin qəhrəman erməni ordusunu pərəm-pərəm edib illərlə işğal altında olan torpaqları azad etməyə nail olan Dədəkişiyev Cavid Gülbaba oğlu idi. Mənim dərdli torpağım yenə bir gəncə soyuq məzar oldu, elə həmin günlər daha bir üzücü xəbər – bu dəfə İmişlinin Göbəktala kəndindən olan Savalanov Nəcməddin Akif oğlunun ağır yaralandığını eşitdim. Dualarımda yer aldı Nəcməddin. Xocalının işğal günü (26. 02. 1985) dünyaya göz açan Nəcməddin Şuşanın işğalı günü (08.05.2016) həyata gözlərini yumdu. Şəhid adlı yaramın üzərinə daha bir yara aldım. Vətən öz şəhidini izdihamla son mənzilə yola saldı. Nəcməddin Savalanov 9 may günü anasından əbədi ayrılıb ana vətən torpağına qovuşdu. Bu son oldumu? Təəssüf ki, olmadı. Ermənilərin «atəşkəs» adı altında hər gün torpaqlarımıza açdıqları atəş yenə bir vətən keşikçisinə tuşlandı. Bu dəfə yenə də İmişlinin Qaralar kəndinə qara xəbər yayıldı. 7 iyun 2019-cu il tarixində düşmənin snayperlə açdığı atəş nəticəsində başından vurulan Əsgərzadə Elnur Bəhram oğlu 12 günlük həyat mübarizəsindən qalib çıxa bilmədi. O iyunun 19-u şəhadət zirvəsinə ucaldı. İmişli qəhrəman şəhidini bu dəfə də bağrına basdı.

Bu yazıda mən İmişlinin cəmi bir neçə şəhidi haqqında yazdım. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canından keçən elimin mərd oğullarının sayı yüzlərlədir.

Mənim üçün vətənimdə ucalan hər şəhid məzarı bir səcdəgahdır. Əbədiyyətdə cənnəti qazanan bəşər övladları, həyatda da insanların ürəyində əbədiyaşarlıq qazandılar.

Mənim qəlbimdəki vətən sevgisinin sonsuzluğuna bərabərdir şəhid sevgim, şəhid dərdim.



***İlham Yusif oğlu Allahverdiyev***

***1992-ci ildə I Qarabağ savaşında qəhrəmancasına şəhid olmuşdur.***

## TARİXDƏN SİLİNMƏZ İLHAMIN ADI

Bir igid şəhadət qazanıbdısa,
Vətən torpağına sarılıbdısa,
Azadlıq eşqiylə odlanıbdısa
Tək odur örnəyim, odur nümunəm,
İstərəm vətəni şəhid tək sevəm.

Kim canın mərmiyə edər ki sipər?
Köksündə ürəyi olar dərbədər,
Şəhid can düşünməz vətən düşünər
Erməni vətənə soxulan zaman,
İlham oldu vətən halına yanan.

Düşmənin dağına göz yumma, Allah,
Yezid yolu getdi düşmənim, alçaq,
Can aldı erməni lap «qucaq-qucaq»,
İlham da biganə qalmadı buna,
Ömrü vətən üçün yetirdi sona.





İmişli şəhidin bağrına basdı,
Göz yaşı danışdı, yer-göylər susdu.
Arzular özünü məzardan asdı
«Şəhid İlham» – deyib, vətən ağladı,
Torpaq sinəsini ahla dağladı.

14.08.2019



***Atayev Azər Əşrəf oğlu***

***1994-cü ildə I Qarabağ savaşında qəhrəmancasına şəhid olmuşdur.***

## TARİX YAZDIN QAN İLƏ

Vətənçün yaşayıb, şəhid olan kəs,
O vətən yolunda verər son nəfəs,
Düşmən yarasından ağlayan zaman
İgid oğulları ona verər səs.

Vətən torpağında qan damla-damla,
Ana çöhrəsində yaş damla-damla,
Savaş alovları odlanan zaman
Azər döyüşürdü eşqlə, inamla.

Elimin mərd oğlu, qisasçı oğlu,
Vətənçün can verən ey igid oğlu,
Azər tək qəlblərdə əbədi qaldı
Torpağın qoynuna köç edən oğlu.





Yazdın öz adını tarixə qanla,
Qürur yaşatdın sən obana, elə.
Bu xalq şəhidini unutmaz heç vaxt
Sevər bu vətəni şəhid tək eşqlə.

16.08.2019



***Nəcməddin Akif oğlu Savalanov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

**ƏBƏDİYAŞAR**

Vətən torpağına qanın çiləyib,
Torpağı qorudu şəhid Nəcməddin.
Özünü vətənə o qurban deyib,
Vətənçün can verdi şəhid Nəcməddin.

İgidlik qanında dövr eləyirdi,
Vətən namus idi bu igid üçün.
Allahdan hər zaman o diləyirdi,
Düşmənə göstərsin qolunun gücün.

Heç zaman qorxmadı «ölüm» sözündən,
Dik baxdı ölümün gözünə hər an.
Aprel döyüşünün zəfər izindən,
Keçən qəhramanı sən qürurla an.





Bu gün ölümsüzlük qazanan şəhid,
Xalqının qəlbində əbədi yaşar.
Tarixdə izini qoyub bu igid,
Şəhidin adı var «əbədiyaşar».

26.02.2019



## MƏZARİNİ ZİYARƏTƏ GƏLMİŞƏM

Şəhidim, məzarını,
Ziyarətə gəlmişəm,
Nə zamandır bu günü
Həsrətlə gözləmişəm.

Necə məğrurluq yağır,
Dilsiz məzar daşından,
Sanki mənlə danışır
O qürur savaşından.

Sənin yatdığın torpaq,
Mənimçün and yeridir.
Bilirəm ki, şəhidlik,
Unudulmaz zirvədir.

Çətin olur sarılmaq,
Bir şəhid anasına,
Sanki qonaq olursan
Onun qəm dünyasına.

Biz qonaq olduğumuz
Həyatı o, yaşayır,
Hər gün gəlib oğlunun
Məzarını oxşayır.

Şəhidim, ağlar qalıb,
Sənin üçün neçə göz.
Necə deyək qəlblərə,
Nəcməddinsizliyə döz?

09.05.2017





## NƏCMƏDDİN ADLI DƏRDİM

Ömrümə qış gəlib sən getdiyin gün,
Tellərim çovğunu, qarı andırır.
Qəlbimdə Nəcməddin adlı yaram var,
Bu yara qəlbimi yaman ağrıdır.

Cansız bala, cismin oxşadığım gün,
İtirdim əbədi sevincin yolun.
Ürəyim kimsəsiz adaya döndü,
Məzara sarıldı taqətsiz qolum.

Dörd ildir bir oğul səsləyirəm mən,
Duymayır səsimi balam dönməyir.
Şəhid kəlməsinin ağırlığına,
Yaralı ürəyim daha dözməyir.

09.05.2020

## MƏZARINDA İLK YAŞIN

Qəlb sızladır bir ananın fəryadı,
Burda yatan canından bir parçadı.
Ana gəlib oğul ziyarətinə,
Bu görünüş ürəkləri dağladı.

İllər öncə qarlı fevral səhəri,
Bir ailə daddı bala bəhəri.
O gün gəlişinə sevinirdilər,
Bu gün matəm saxlayır əzizləri.

Doğmalar gəlibdi qucaqda çiçək,
Təbrik deyib, hamı bir daş öpəcək.
Hər dəfə bu ziyarətə gələnlər,
Bir gün deyil hər yeni gün öləcək.

Yanaqlardan göz yaşları süzülür,
Nəcməddinsiz çox ürəklər üzülür.
Yoxluğunda xatirələr canlanır,
Sənli günlər göz önünə düzülür.

Qəhər boğur sevgilini həmin an,
Sənli zaman dayanaydı ay, aman.
Nakam qalan arzulara ağlayır,
Səninçün ürəklər darıxır yaman.





Ağır gəlir qardaşsızlıq qardaşa,
Qardaş deyib baxmaq bir soyuq daşa.
Hər gün sənin görüşünə tələsir,
Tək məzarın çevrilib dost, sirdaşa.

Balaların qalıb əli qoynunda,
Ölüm varmış əzrailin oynunda.
Bilməzdilər xoşbəxtliyi itirib,
Görüşünə gələrlər qəm donunda.

Mən yazdıqca qəhərdən boğuluram,
Bulud kimi boşalıram, doluram.
Gözü yaşlı qalan həmin kəslərin,
Yazdığım an yerində mən oluram.

26.02. 2017

## ŞEİR AŞİQİYDİ BİR DASTAN OLDU

Bir zaman şeirlər yazan bir insan,
İndi şeirlərin məzmunu olub.
Kövrək ürəkləri anlayıb, duyan,
Özü ürəklərə toxunub durub.

Yazdığı şeirlər düşmüşdü dilə,
Nəcməddin dillənsə hamı susurdu.
Deməzdi şeiri o elə-belə,
Şeirlə qəlblərə o toxunurdu.

Nə deyim, nə yazım indi bilmirəm,
Belə bir igiddən nə yazsam azdır.
Sətirlər danışır mənsə dinmirəm,
Ey qələm, ruhumun səsini yazdır.

Dil açıb danışsın həzin sətirlər,
Bir igid oğulun ömür yolundan.
İgid tək doğulan şəhid tək ölər,
O, qorxmaz heç zaman ömrün sonundan.

Bax belə bir oğul itirmişik biz,
Bəs necə yanmasın sinədə ürək?
Bizim məğrur olan bu millətimiz,
Nəcməddin adıyla fəxr etsin gərək.

07.05.2018





***Cavid Gülbaba oğlu Dədəkişiyev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ŞƏHİD VƏTƏN DEMƏKDİR

Adın qəlbimizdə yaşar hər zaman,
Səni unutmarıq igid, qəhrəman.
Şücaət göstərdin, sən, tarix yazdın
Öz vətənin üçün verdin şirin can.

Qorxmadan düşmənlə üz-üzə gəldin,
Ox olub yağının bağrını dəldin.
Yerlə yeksan etdin düşmən ordusun
Qırdın neçə soysuz, dünyadan sildin.

Sən azad eləyib vətən torpağın,
Sancdın o yerlərə vətən bayrağın.
Göz dağı verdiniz mənfur düşmənə
Aldıq igidlərdən zəfər sorağın.

Sancıldı bayrağım Lələtəpəyə,
Adınız ucaldı enməz zirvəyə.
Vətən torpağına can fəda edib
Şəhid tək ucaldı ruhunuz göyə.

İllər gəlib su tək ötüb keçəcək,
Dünyaya gələnlər bir gün gedəcək.
Şəhid yaxınları çox gözəl bilir,
Şəhid adı qəlbdən silinməyəcək.

Şəhidlər önündə biz baş əyirik,
Onlar cənnətdədir yaxşı bilirik.
«Şəhid ölməz, vətən heç vaxt bölünməz"
Bu şüarı bizlər qəlbdən deyirik.

08.04.2017





## VƏTƏNİN ÖVLADI

Sən vətən elədin torpağı, daşı,
Bitmədi qəlbində qeyrət savaşı,
«Qarabağ» deyəndə gözünün yaşı
Odlanan qəlbinin özünə axdı,
Gözündən intiqam şimşəyi çaxdı.

Vətənçün bəxş etdi Yaradan səni,
Cavid, qəlbdən vurdun yağı düşməni.
Sevmədin vətəndən qeyri özgəni,
Sən qurban elədin canı vətənə,
Biz el qəhrəmanı deyirik sənə.

Sən duydun vətənin iman andını,
Qan ilə tarixə yazdın adını.
Daddın şəhidliyin şirin dadını,
Ucaldın vətənin övladı kimi,
Tutdu məhəbbətin elin qəlbini.

14.04.2020



*Əsgərzadə Elnur Bəhram oğlu*

*2019- cu ildə erməni təxribatının qarşısını alarkən şəhid olmuşdur.*

## SEL ALIB ELİMİ

Torpaq, ürəyinə şəhidin gəlir,
Bas onu bağrına anası kimi.
Bilmirəm Kür coşub, yoxsa Arazmı
Sel alıb yenə də mənim elimi.

Bitir bir gənc ömrü, bitir min arzu,
Sanki bir-biriylə təzad aparır.
Elnurun zamansız bu gedişinə
Bu yer də, bu göy də nalə qoparır.

Yenə də bir şəhid, yenə göz yaşı,
Sızladı ürəklər oldu çox üzgün.
Şəhadət zirvəsin qazananlara
Şəhid tək qoşuldu Elnur da bu gün.

21.06.2019







*Məmmədov Rasim Əbdül oğlu*

*2016-cı il Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.*

## ŞƏHİD VƏTƏN DEMƏKDİR

Cənnətin sakini olan şəhidim,
Adını duyanda qəlbim ah çəkər.
Ömür kitabına nəzər salanlar
Fəxarət toxumun qəlbində əkər.

Sən özün vətənsən, sən özün torpaq,
Onunçün məzarın and yerimizdir.
Şəhid məzarında ağılar deyil
Səslənən hər zaman öz himnimizdir.

Budur şəhidliyin uca zirvəsi,
Göyü də, yeri də işıqlandırar.
Rasim tək igidi olan bu xalqın,
Özünü dünyanın məğruru sayar.

17.05.2020

## VƏTƏN QƏHRƏMANI

Bir qəhrəman doğuldu,
Bu vətən torpağında.
Ürəyi fəğan etdi
Qarabağ sorağında.

Dözmədi vətəninin,
Darda qalan gününə.
Gecəsi yer dəyişdi,
Qarışdı gündüzünə.

Hay verdi vətəninin,
Ucalan naləsinə.
O, döyüş meydanında
Düşmənə gəldi sinə.

Adı qorxuya saldı,
Hər duyanda düşməni.
Qəhrəmantək qorudu
Şəhid Rasim vətəni.





Şanlı Aprel günündə,
Tarixi qanla yazdı.
Qəlbində vətən eşqi
Coşan Kürdü, Arazdı.

O eşq ilə ucaldı,
Şəhadət zirvəsinə.
O son dəfə hay verdi
Bu vətənin səsinə.

20.05.2019

## BİR QAZİ XANIMI, ŞƏHİD ANASI

Bir şəhid anası tanıyıram mən,
Qəlbində bir oğul dağı daşıyır.
Ruhuna çökübdür sanki çən, duman,
O ana vüqarlı dağa oxşayır.

Əsalət daşıyan iki adı var,
Qazi xanımıdır, şəhid anası.
Qəlbində iz salıb həsrət, intizar,
Şəhid tək can verib Rasim balası.

Onun xoşbəxtliyi gedib əlindən,
Qəlbinə sığdırıb dünyanın yükün.
Əbdülü, Rasimi düşmür dilindən,
Həsrətlə, kədərlə ötür ömür, gün.

06.04.2019





## ŞƏHİD QARDAŞI

Ürəyində bir acı var bitməyir,
Heç bir loğman imdadına yetməyir.
Əksi bir an xəyalından getməyir –
Ürəyinə axar gözünün yaşı,
Bu acı sonsuzdur, şəhid qardaşı.

Cüt məzardı ata, qardaş ocağı,
Torpaq açıb şəhidimə qucağı,
Ruhu gəzər diyarın hər bucağı
Şəhid qoxar vətənin dağı, daşı,
Ölməzdirlər onlar, şəhid qardaşı.

Bilirəm qardaşlı günü gəzirsən,
Bəzən olur yaşamaqdan bezirsən.
Bu dünyanın kədərində üzürsən,
Göynəyir kədərdən ürəyin başı,
Şəhidimlə öyün, şəhid qardaşı.

30.11.2019



## İKİ DAMLA GÖZ YAŞI

Tarixin toz basmış köhnə səhifələrin araşdırarkən üstündə illərin izi düşən çox səhifəli tarixin yaddaşında bir qəhrəmanlıq izi gördüm. İndiyə qədər bu qəhrəmanı tanımadığım üçün səhvi olan uşaqlar kimi pörtüb, qızardım. Utanılacaq bir hərəkət etmişdim, bu vətənə can verib, özü yarımcan olan qəhrəmanın tarixdə qoyduğu izdən, igidliyini izah edən həqiqətlərdən xəbərsiz idim. Hələ əlinin, ayağının sağlam olduğu zamanlarda ayağı onu vətən səngərinə aparmışdı. O səngər ki, qədim Naxçıvanı əzəli, tarixi düşməndən müdafiə edirdi. Hər tacın ən dəyərli bir qaşı olduğu kimi, Naxçıvanın da ən dəyərli qaşı Sədərək idi. Parıltısı düşmən gözünü «cıvıldadan» bu gözəl torpağa çox göz dikdilər. Bəs vətən oğlu vətəndən pay verərmi? Namusu bildiyi torpağa erməni təcavüzünə izin verərmi? Yox, bu vətən oğlunun göz yumacağı bir şey deyil.

Bəli, vətən oğlu. Düz eşitdiniz. O vətən oğlu ki, şəhadətin





bircə addımlığından dönüb. O vətən oğlu ki, 24 il hər gün, hər saniyə ölüb. Sədərəyi, namusunu, anasını, ana vətənini canı bahasına, sağlamlığı bahasına qoruyan bu qəhrəman hələ də rahatlıq tapa bilmirdi. Çünki onun vətəni tək Naxçıvan – Sədərək torpağı deyildi. Onun Qarabağı hər gün düşmənin çirkli əllərinin «sığalına», «hərarətli nəfəsinə» tuş gəlirdi. Bu minvalla özünün daha harayına yetə bilmədiyi vətən torpaqlarını düşmənin əzabından qurtarsın deyə övladlarının tez böyüməsini istəyirdi. Qeyrətli atanın qeyrətli oğlu olar. O oğul ki, atasını özünə müəllim, örnək götürdü. Atanın getdiyi vətənin azadlığa yönələn yolunu addım-addım irəlilədi. Addımları vətən oğlunun oğlunu səngərə gətirdi. Harda düşmənin torpağa uzanan əllərini gördüsə orda o əlləri sındırdı. Atasının gecələr yuxularında gördüyü imdad diləyən vətən torpağının harayına bu oğul hay verdi. Tək vətən harayına deyil, atasının vicdan harayına da səs verdi. 24 il yatağa məhkum olub, hər gün Qarabağ deyib qara bağlayan ata bir gün zəfər sədasını eşidib sevincdən ağlayacağı günü illərlə xəyal etdi. Bir hərbiçi çox gözəl bilir ki, azadlıq sözlə qazanılmır – Azadlıq zəfəri qanla qazanılır. Bu ata da bir gün zəfərin qazanılmasına ümid edərkən oğlunu vətənə qurban edə biləcəyini də yaxşı bilirdi. Ancaq vətən eşqi ilə şəhadətə ucalmağın hər kəsə nəsib olmadığını da düşünürdü. Arzuların uzandığı yollara addımlar tez çatdı. İllər sonra vətənin sükutu pozuldu. Dünyanın kar olan qulaqları, kor olan gözləri bir gecədə açıldı. Dünya susqun Azərbaycanın daha dilə gəlib necə zəfər nəğməsini oxuduğunu eşitdi. Anaların ağı səsləri zəfər nəğməsinə qarışdı. Ataların göz yaşları illər sonra azadlıq qazanan vətən torpağına sancılan bayrağa damladı. İllərlə bu zəfəri yuxularında görən vətən oğlu ən böyük arzusuna çatdı. Ürəyində 24 il əvvəl Sədərəkdə qazandığı zəfər zamanı yaranan hisslər yarandı. Sədərəyi sağlamlığı bahasına qoruyan vətən oğlu, Lələtəpənin övladının qanı, canı bahasına düşməndən azad olduğunu duydu. Qazi ata bir də şəhid atası adı

ilə mükafatlandı. Gözlərindən iki damla yaş düşdü vətən oğlunun , biri zəfər üçün biri şəhid üçün. Elə o iki damla göz yaşının düşdüyü iki göz kimi Babək rayonunun Cəhri kəndində bir təpə başında iki məzar var. İndi o məzarları ziyarət edənlər iki damla göz yaşı axıdır, biri illərlə vətənə xidmət edib 24 il yatağa məhkum olan qazi Əbdül Məmmədov üçün, biri 20 il vətənə xidmət edən tabor komandiri şəhid mayor Rasim Məmmədov üçün.

## İKİ DAMLA GÖZ YAŞI

İki məğrur igidin adı qoşa çəkilir,
Həsrət dolu baxışlar məzarlara dikilir,
Gözlərdən iki damla göz yaşı cüt tökülür
Biri vətən yolunda qazi olan ataya,
Biri ata yolunu davam edən balaya.

Hər döyüşün izi var cüt ucalan məzarda,
Qəhrəmanlar qoymadı vətən torpağın darda,
Vətən keşiyin çəkdi ata, oğul ard-arda
Məlhəm oldu qanları vətənin yarasına,
Hər ikisi ucaldı şəhidlər dünyasına.

Yaddaşlara həkk olub qazi Əbdülün adı,
Şəhid adı qazanıb onun igid övladı,
Bu xalq öz balası tək Rasim deyib ağladı
Al bayrağa bürünən cənazədən nur saçır,
Vətənə can verənlər vətən qoynunda yatır.







***Qabil Əbdüləli oğlu Orucəliyev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olub.***

## ŞƏHİDİMİN BALASI

Mən bir bala tanıdım,
Ata üzü görməyib.
O «ata» kəlməsini,
Heç kimsəyə deməyib.

Hələ beşikdə ikən,
Şəhid olub atası.
Açıb həsrətə yelkən,
Şəhidimin balası.

Adına verilibdir,
Şəhid Qabilin adı.
İndi şəhid adını,
Daşıyır öz övladı.

Bu körpə böyüyəcək,
O da əsgər olacaq.
Atası Qabil kimi,
Düşməni susduracaq.

29.03.2019

## KÖNÜL YARAM

Hələ sənə doymamışdım ki,
könül yarım,
Nə telimdə yeri qalan əl izinə,
Nə könlümü xumar edən xoş sözünə.
Müvəqqəti gəlişində
sevinc saçan iki gözüm –
gedişində damla-damla yaş tökərdi.
Gəlişində aydınlanan həyatıma,
gedərkən zülmət, qaranlıq çökərdi.
Sən qoxardı üstüm, başım,
ev, eşiyim...
Bir az həsrət, bir az da sən,
Ancaq yenə bilirdim ki,
dönəcəksən.
Calayırdım günü-günə,
Həsrət pay düşən ömrümə.
Gəlişini intizarla gözləyirdim,
Yarım gələcək deyirdim.
Ümidlərim bircə anda boşa çıxdı,
Fələk mənim sevincimi
kökündən qoparıb yıxdı.
Səadətim talan oldu,
Yenə də gözlərim doldu.
Ümidimi çilədim yarım gedən yollara,





Dərdim oldu qalaq-qalaq,
Dərddən yazdım varaq-varaq.
İndi yardan mənə qalıb,
Xatirələr, şəkillər və bir balası,
Qabil, oldun ürəyimin sağalmayan bir yarası.

18.01.2020



***Sənan Tahir oğlu Axundov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİDLƏR YAŞAR ƏBƏDİ

Hələ uşaq ikən qəlbinə vurdu,
Vətən düşmənləri vətən dağını.
Uşaqkən arzular gözündə soldu
Dərd məskən eylədi könül bağını.

Böyütdün qəlbində vətən yarası,
Tək qisas səngərə apardı səni.
Dostu xilas etdin, dedin yaşasın
Vermədin həyatda bada kimsəni.

Şəhid xəbərini aldı bütün el,
Büründü cənazən al qərənfilə.
Göz yaşı durmadan axıb oldu sel,
Arzular çevrildi tər qərənfilə.





Sancıldı atanın qəlbinə xəncər,
Tək oğul tabutun götürdüyü an.
Son dəfə oğluna sarılsın istər-
Elə həmin anda dayana zaman.

Bir ana naləsi deşir qulağı,
Heç kim bu naləni duymaq istəməz.
Yandırır ürəyi dediyi ağı,
Bu dərdi «dadmayan» acısın bilməz.

Ey bəxti bir qara daşa çevrilən,
Sevgisi kəfənə bükülən qadın.
Sənan bu vətənə canını verən,
Şəhiddir, bu xalqı unutmaz adın.

Bilirəm ürəyin para-paradır,
Qanayır yarının yarası kimi.
Ziyarət ocağın artıq oradır,
Bu sözlər dağlayır yanan qəlbimi.

Bizim qan borcumuz var şəhidlərə,
Bir gün borcumuzu qaytaracağıq.
Bayraq sancılacaq qan düşən yerə,
Zəfər bayramını çaldıracağıq.

09. 04.2017

## AZADLIQ MÜJDƏÇİSİ

Adını qanla yazdın vətənin dağ-daşına,
Sahib çıxdın torpağın sən hər bir qarışına,
Uşaqlıqdan bir məqsəd qoymuşdun öz qarşına
«Bu vətən torpağını mən azad görəcəyəm,
Gərəkirsə vətənim uğrunda öləcəyəm».

Özünlə bir bərabər böyüdü vətən dərdin,
Füzuli torpağını azad görmək istədin,
Bax o azadlıq üçün şəhid kimi can verdin
Vətənin dar günündə düşmənə gəldin sinə,
Ucaldın uca olan şəhadət zirvəsinə.

Həm dostuna can verdin, həm müqəddəs torpağa,
Şəhid tək qədəm qoydun cənnət adlı bir bağa.
İndi sənin yoxluğun qəlblərdə dönüb dağa,
Şəhidim, sənsiz gəlir yaşın üstə yeni yaş,
Yoxluğun ürəklərdə açıb bitməyən savaş.

29.09.2019







***Çingiz Fuad oğlu Mustafayev***

***1992-ci il iyun ayının 15-də Xocalı rayonunun Naxçıvanlı kəndində çəkiliş apararkən şəhid olub.***

## HAQQIN HAYQIRAN SƏSİ

Tarixin qan yaddaşın aydınlığa çıxaran,
Sən tək vətən eşqindən dözüm alan, güc alan.
Gənc yaşda vətən dərdin çəkə-çəkə qocalan
Sayəndə həqiqətlər ayaq tutub yeridi,
Çəkdiyin görüntülər susanların dilidi.

«Qanlı yanvar» gününü, «Xocalı faciəsin» ,
Fəryad edən kəslərin susmayan ah-naləsin,
Ömrü beşikdə bitən körpənin son nəfəsin
Sən dünyaya hayqırdın, dünya sanki kor oldu,
Günahsız insanların qisası qəlbə doldu.

Pərvanə tək dolandın sən vətənin başına,
Çevrildin düşmənlərin qorxulu röyasına.
Sən də bir sakin oldun şəhidlər dünyasına,
Şəhid olduğun anı öz əllərinlə çəkdin,
Şəhadət zirvəsində bir çiçək də sən əkdin.

29.08.2019



***Raquf İbrahim oğlu Orucov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## VƏTƏNƏ DOĞAN GÜNƏŞ

Bir doğan Günəş oldun,
Sən vətən torpağına.
Qanından damla düşdü
Vətənin bayrağına.

Ömrünü fəda etdin,
Raquf, vətən, el üçün.
Xalqın duydu, hiss etdi
Səndəki əzmin gücün.

İz qoydun tarixlərdə,
Qəhrəman oğul kimi.
Şəhidim, sevgin tutdu
Hər bir kəsin qəlbini.

Neçə-neçə döyüşdə,
İz qoymusan qəhrəman.
Nurunla işıqlanıb
Bütöv bir Azərbaycan.

12.07.2020





## ŞƏHİD ANA, ŞƏHİD OĞUL

Şəhidləşən bir vətənin anası,
Bir az ruhən,
bir az cismən
zərrə-zərrə torpaqlaşan –
qəhrəman Raya ana.
Heyran oldum bu insana,
Qəlbindəki vətən eşqi
Qanla keçdi övladına.
O övlad ki, ana üçün,
vətən üçün yarandı,
Anaları itirən gün ürəyi parçalandı.
Ürəyindən damlayan qan,
Qisas sözü həkk edirdi ruhuna,
azadlığı vəd edirdi vətənə...
O vədə yetirdi bizi,
Vətənimin çölü düzü,
Azadlığa qucaq açdı.
O azadlıq qazanıldı
qanlar ilə,
canlar ilə...
Azadlığı yaşadanlar düşdülər dildən-dilə.
Bax beləcə, Raquf aldı anaların qisasın,
Dedi: "Anam şəhid olub, ana vətənim yaşasın!"



*Mirzəyev Murad Telman oğlu*

*2016 - cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olub.*

## VƏTƏN FƏDAİSİ

Sən tarix yazmısan, milli qəhrəman,
Cənnətə qərq olub əbədi dünyan.
Bu vətən naminə candan keçən can
Vətən fədaisi, vətən igidi.

Adını unutmaz xalqın, millətin,
Xəyalda çizilir mərd tək surətin.
Qanın çilənibdir sussuz torpağa
Vətən fədaisi, vətən igidi.

Adını həkk etdin, tarixlə yaşa,
Adın vətən ilə çəkilər qoşa.
Sən hünər göstərib girdin savaşa
Vətən fədaisi, vətən igidi.

Ordumuz zirvəyə ucaldığı gün,
Gözünə dik baxdın Murad, ölümün.
Hünərin örnəkdir gənc nəsillərə
Vətən fədaisi, vətən igidi.





Adın illər boyu xatırlanacaq,
Xalqın daim səni yaşar sanacaq.
Qürursan vətənə, anaya, şəhid
Vətən fədaisi, vətən igidi.

30.05.2020



***Toğrul Səyyad oğlu Məmmədov***

***2016-cı ildə düşmən təxribatının qarşısını alarkən qəhrəmancasına şəhid olub.***

## QƏHRƏMANLIQ SALNAMƏSİ

Sağlığında könüllərdə taxt quran,
Öz xalqının keşiyində mərd duran.
İntiqamçün, qisas üçün and içən
Oldun düşmənləri köksündən vuran.

Xainlərin gözlərinə dik baxıb,
Od kimi alışıb, şimşək tək çaxıb
Damarında dövr eləyən qanıyla,
Vətən eşqi onun qəlbinə axıb.

Hər kəs tanır «şir ürəkli» Toğrulu,
Adı olub vətənimin qüruru.
Hərbiçi olmaqdı böyük arzusu
Gəncliyindən o tutmuşdu bu yolu.

Dayaq durdu bacısına, qardaşa,
O sığdırdı çox dərdi cavan yaşa.
Dözülməyən dərdsə vətən dərdiydi
Bu dərd döndü ürəyində bir daşa.





## QİSAS ALAN ŞƏHİDİM

Sənin həsrətinlə ağlayır gözlər,
Ardınca düzülüb indi xoş sözlər.
Qəfil gedişinə inanmaq olmur
Toğrul, sevənlərin yolunu gözlər.

Yoxluğun qəlblərin imtahanıdır,
Sənin axan qanın şərəf qanıdır.
Xalqım, dur ayağa, sarıl silaha –
Şəhid qanlarının qisas anıdır.

Söz verdin dəfnində əziz dostuna,
Sözünü tez tutdun getdin yanına.
Sən dostun qisasın aldığın kimi
Sənin qisasın da təki alına.

Bu hava, bu torpaq indi qan qoxur,
Bu qoxu qəlblərə intiqam toxur.
Şəhidin ağısın anası deyil
Hər gecə gizlincə mələklər oxur.

Torpağı almaqdır şərəf borcumuz,
Gərəksə tutacaq silah ovcumuz.
Düşmən tapdağında qalan torpağı
Düşməndən qurtarar güclü ordumuz.

14.07.2017



***Mübariz Ağakərim oğlu İbrahimov***

***2010 - cu ildə düşmən ordusunun xeyli sayda canlı qüvvəsini məhv edib və qəhrəmancasına şəhid olub.***

## MÜBARİZİM

Sən əbədi yaşayan bu tarixin özüsən,
Bu millətin, bu xalqın tükənməyən sözüsən.
İllərin qisasını düşmənlərdən alaraq
Çoxuna örnək olub, təbliğ etdin düzü sən.

İllərlə qisas hissin hopdurmuşdun qanına,
Deyirdin: «Çıxacağam ermənin sonuna».
Elə dediyin kimi cəsur bir addım atıb
Fəda etdin canını vətən və xalq uğruna.

Aldın günahsız gedən neçə canın qisasın,
Dedin «mən şəhid olum, mənim xalqım yaşasın».
Şəhid tək ölümsüzlük qazanan qəhrəmanım,
Cənnətdə gözəl olar şəhidlərin dünyası.

Elə adından doğur mübarizlik duyğusu,
Atdığın addım oldu düşmənlərin qorxusu.
Sənin qəhrəmanlığın dillərdə dastan olub
Mübariz tək qəhrəman olmaq istər çoxusu.

18.06. 2019





***Fərid Güloğlan oğlu Əhmədov***
***2010-cu ildə Mübariz İbrahimovun nəşini düşmən tərəfdən götürməyə çalışarkən qəhrəmancasına şəhid olub.***



## ADIN BİR SƏLTƏNƏTDİR

Sən elə ad qoymusan,
Bu xalqa, bu millətə.
Şəhid adın çevrilib
Qəlblərdə səltənətə.

Vətənin qisasını,
Sən tək alan çox oldu.
Vətən, bayraq sevdası
Neçə ürəyə doldu.

Neçə vətən övladı,
Yolunu örnək bildi.
Çox düşməni məhv edib
Sən sildiyin tək sildi.

Misilsiz yaratmışdı,
Səni uca Yaradan.
Onunçün də köç etdin
Şəhid kimi dünyadan.

Dost və vətən yolunda,
Canını fəda etdin.
Cənnət adlı dünyada
Sən çiçək kimi bitdin.

29.12.2019





## CƏNNƏTDƏN GƏLƏN QONAQ

Gecəm nura boyandı,
Zülmətim aydınlandı.
Cahan sanki canlandı
İşıq saçan bir sima,
Cənnətdən etdi ima.

Təbəssüm saçdı o an,
Nəqş eləyib Yaradan.
Bu mələkdir ya insan?
Cavab tapa bilmirəm
Lal olmuşam dinmirəm.

Cənnətin bir sakini,
Bərxudar etdi məni.
Şəhid sevən qəlbimi,
Fərid gəlib şad etdi
Dönüb cənnətə getdi.

06.01.2020



*Elnur Adil oğlu Əliyev*

*2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.*

## TARİXDƏ TARİX TƏK YAŞAYACAQSAN

Vüqarın dağları yarıda qoyub,
Adının yanında dağ utanc duyub.
Nə olsun ki, onlar əlçatmazdılar,
Dağlar qəhrəmana hansı ad qoyub?

Dağlar qurtarıbmı bir insan canı?
Vüqarlı dağların igidi hanı?
Mənimçün vüqarlı dağlar Elnurdu,
Onun bu torpağa axıb al qanı.

Şəhid tək tarixə yazdırıb adın,
Vətənçün o dadıb şəadət dadın.
Ölüm qorxutmayıb onun gözünü,
Qurtarıb o neçə insan həyatın.

Atılıb partlayan qumbara üstə,
Əsgər xilas edib hətta bir dəstə.
Yaşadıb vətənin həm əsgərləri,
Bu ürək olmayıb başqa heç kəsdə.





İlk addım atanda Lələtəpəyə,
Deyirdi: «Vətənçün dəyər ölməyə».
Şəhid tək ölməzlik adın qazandı,
Adı həkk olundu neçə ürəyə.

Tarixdə rəqəmlər yer dəyişəcək,
Bu tarix nə yazıb, nələr siləcək.
Mən bundan əminəm gələcək nəsil,
Şəhid Elnur adın daim deyəcək!

29.08.2017

## ÖZ BƏXTİMƏ DƏYDİ GÖZÜM

***(Şəhidin xanımının duyğularına ithafən)***

Öz bəxtimə dəydi gözüm,
Bu dünyada sənliliyi
sonsuzadək mən yaşadım...
Bir zamanlar xoşbəxt idim,
Sən gedən gün döndü bəxtim-
bədbəxt kəsə mən oxşadım.
Sındı qolum,
qanadlarım,
duyğularım,
arzularım...
Uşaq kimi yetim qaldım,
Yollarına nəzər saldım,
Gözüm doldu...
Bağlı qaldı arzuların qapısı,
Səngiməyir illərdi ki,
Qəlbimin ağrı, sancısı.
Ay sevdiyim,
mən səninlə kama çatdım,
Xoşbəxtliyi,
səadəti tək səninlə ömrə qatdım.





Ömrü yaman qısa oldu -
sevinc dolu günlərimin.
Boşa düşdüm bircə anda -
tutan getdi əllərimi.
Sənli xoşbəxt ötən ömrü
Sənsiz qəmli yaşayıram.
Öz qəlbimə dağ çəkirəm,
Öz köksümü dağlayıram...

13.07.2019



***Vüqar Nurəddin oğlu Yusifov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmanasına şəhid olmuşdur.***

## MƏĞRUR QƏHRƏMAN

Bu vətən uğrunda neçə oğullar,
Can verib vətəni yaşadıbdılar.
Vətən igidiylə hey qürur duyur,
Onlar düşmən köksün odlandırıblar.

Şəhid adlarının işıqlarına,
Toplaşar xalqımın mərd igidləri.
Bu vətən borcludur övladlarına,
Bu torpaq hiss edib son nəfəsləri.

Ana tək şəhidi bağrına basan,
Şəhid nəfəsini bu torpaq duyar.
Vətənçün yaşayıb, vətənçün ölən,
Qəhrəman oğullar bir tarix olar.

Qan ilə tarixdə iz qoydu Vüqar,
Neçə gənc yolunu örnək götürdü.
Xalqı ehtiramla adını anar,
Çünki tək xalq üçün qanı töküldü.

01.11.2019





****

Azadlıq yolunda canından keçib,
Vətən torpağına sipər olmusan.
Cənnəti əbədi bir məskən seçib,
Vətənin köksündə dəfn olunmusan.



*Pəncəli Nurməmməd oğlu Teymurov*

*2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.*

## TARİX YAZAN QƏHRƏMAN

Hər aldığı nəfəsdə vətənim, canım dedi,
Öz toyunda hər kəsin önündə bir söz verdi.
O vətən sevgisini ən ali sevgi bildi,
Söylədi – «Arzum budur vətənçün şəhid olum,
Şəhadətə yönəlsin mənim bu ömür yolum».

Neçə şərəf medalı qazandı gənc yaşında,
Əcəl olub dolandı düşmənlərin başında,
Silinməyən iz qoydu Qarabağ savaşında
Hər zaman xatırladı Xocalı faciəsin,
Sanki qisas almaqçün o alırdı nəfəsin.

Getdiyi hər döyüşdə zəfər, uğur qazandı,
Unutmadı heç zaman içdiyi şərəf andın,
Vətənin keşiyində qəhrəmantək dayandı
Axıtdı torpaq üçün axan son damla qanı,
Arzusuna yetişdi şəhidtək verdi canı.





Onun şəhid xəbəri dağı, daşı inlətdi,
Ürəkləri sızlatdı, acı verdi, göynətdi.
Nakam qalan arzular küsüb əbədi getdi,
Kədəri sevinci tək ucsuz-bucaqsız oldu,
Gözlər buludlar kimi dərddən boşaldı, doldu.

Qalmadı bu dünyada onun bir yadigarı,
Gedişiylə qış etdi bircə anda baharı.
Nakam sevgisi ilə tək qaldı nazlı yarı,
Bala dağı dərd oldu ana, ata qəlbinə,
Qardaş nəşin götürdü qardaşları çiyninə.

Çarəsizlik bükmüşdü qardaşların belini,
Əsən külək yolurdu bacıların telini,
Bu şüar bürümüşdü vətənimi, elimi
«Arzuna yetdin bu gün şəhid oldun qəhrəman,
Adın yaşayacaqdır qəlbimizdə hər zaman».

19.04.2017



***İnqilab Çingiz oğlu Quliyev***

***2016-c ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ANA HİMN OXUYUR AĞILARINDA

İgidlik dastanı yazan kəslərin,
Cənnətdə duyular həzin səsləri.
Vətəni şərəfi bilən oğullar,
Vətənə həsr edər son nəfəslərin.

O kəslər vətənə müqəddəs baxır,
Dərdinə ağlayır, qəlbini yaxır.
Qurtarmaq istəyir öz «ana»sını,
İntiqam hissləri gözlərdə çaxır.

Neçə belə oğul böyüdüb vətən,
Vətəni canından önəmli bilən.
Bir igid var idi adı İnqilab,
Bilirdi torpağı əziz cana tən.

Necə qorxmaz idi, necə qəhrəman,
Döyüşdə verməzdi düşmənə aman.
Lərzəyə salardı adı düşməni,
Geri çəkilməzdi o heç bir zaman.





Apreldə çiləndi torpağa qanlar,
Şəhid tək can verdi neçə cavanlar.
İnqilab peyğəmbər qonşusu oldu,
Ana himn oxurdu həmin o anlar.

Sən demə bu himn yox ağıymış məgər,
Al qana bələnib həmin an səngər.
İllərin həsrətin sona yetirib,
Həsrətli torpağa toxunub əllər.

Sancılıb zirvəyə vətən bayrağı,
Düşmənin qəlbinə vurublar dağı.
Biz hər gün bir addım irəli gedib,
Bir gün alacağıq o Qarabağı.

Bax o gün olacaq zəfər bayramı,
Yerdə qalmayacaq bir şəhid qanı.
Xalqımın enişin istəyən kəslər,
Zirvədə görəcək Azərbaycanı.

07.07.2017



***Rüstəm Oruc oğlu Əhmədov***

***2016-cı ildə Aprel döyşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ÖRNƏKDİR VƏTƏN EŞQİN

Şəhid qəlbdə hər bir zaman yaşayar,
Şəhidliyin səltənətin daşıyar,
Şəhid ömrü bir kitaba oxşayar
O «kitablar» vərəq-vərəq oxunar,
«Şəhid» sözü ürəklərə toxunar.

Arzuları vətənə qurban deyən,
O arzuyla birgə məzara gedən,
Bu Vətəni öz canından çox sevən
Qəhrəman ömrünə mən nəzər saldım,
Rüstəmin vətən eşqin örnək aldım.

Kəlmələrim boğazıma dizildi,
Göz yaşlarım yanağımdan süzüldü,
Əlim yerdən həm də göydən üzüldü
Körpələrin arzuların duyanda,
Ürək fəryad etdi elə o anda.





«Ata» deyib dərdli-dərdli baxırlar,
Ürəkləri yandırırlar, yaxırlar,
Arzuların qəlblərində sıxırlar
Bilirlər ki, şəhiddir ataları,
Əmanətdir şəhidin balaları.

08.08.2019




***Adil Kamran oğlu Adilzadə***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## YOX OLUŞU VARLIĞININ ÖZÜDÜR

Bir oğul var başında qüdrət tacı,
Nakam ömrü hər kəsə verir acı,
Bu acının tək çarəsi, əlacı
Dilə gələn «şəhid Adil» sözüdür,
Yox oluşu varlığının özüdür.

Qəhrəmandır döyünən hər ürəkdə,
Tükənmədi onun gücü biləkdə,
Surətinə çatmayırdı külək də
Hər addımı azadlıqçün atırdı,
Hər addımda arzusuna çatırdı.

Düşmən duyub titrəyirdi adını,
Dadmış idi qalibiyyət dadını,
Eşidirdi vətənin imdadını
İşğaldakı torpaqlarçün döyüşdü,
O imdada can verərək yetişdi.





Vətənimin keşiyində dayandı,
Unutmadı ruhən içdiyi andı.
O şəhidlik məqamını qazandı,
O torpağa, torpaq ona qovuşdu,
Adilin bəxtinə şəhidlik düşdü.

08.08.2019



***Teymur Sabir oğlu Qasımov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## TORPAĞA CAN VERƏNİM

Yenə sənsiz gələcək yaşın üstə yeni yaş,
Sənsizlik oldu Teymur, dərdli qəlblərə yoldaş,
Səni deyib gələnlər qucaqladı soyuq daş
Ürəklər həsrətindən paralandı min yerə,
Sənin vaxtsız gedişin çevrilib dərdə, sərə.

Sən vətəni ucaltdın, vətəni var edən kəs,
Can verən torpağına, ruh olub boylanan kəs,
Neçə qəlbdə yaratdın vətən eşqinə həvəs
Şəhadətin zirvəsin fəth etdin qəhrəman tək,
Vətən üçün dayandı sinəndə çarpan ürək.

Adın dillərdə dastan, vətən sevgin bir roman,
Sən oldun gənc yaşında vətən dərdini duyan,
Hər zaman söyləyirdin: «Oyan, millətim oyan»
Xalqa zəfər müjdəsin yetirənlərdən oldun,
Vətən, torpaq uğrunda qönçə çağında soldun.

03.01.2020





## YUXUMDA ŞƏHİD TOYUDUR

Yalan olan bu dünyanın,
Gerçək olan tərəfinə,
Sakin olan bir cavanın,
Arzusuna çatdığını,
Öz yarını tapdığını
Hiss etdim mən.

Dünyası bəmbəyaz idi,
Mən bilmədim əlbisəsi,
Bəy libası, ya kəfəndi?!
Sevinc qonmuş çöhrəsinə,
Xına yaxmış əllərinə.
Gülər üzü...

Bu gerçəyin lap özüdür,
«Şəhid cənnət sakinidir»
Dilimin əzbər sözüdür.
Bu onun bir həqiqəti,
Yuxumda şəhid toyudur
O xoşbəxtdir.

Səadəti çiçək açıb gözlərində,
Bu dünyada tapmadığı,
Yar əli var əllərində.
Ətrafında müqəddəslər,
Titrətdi ruhumu səslər
Mən oyandım...

07.01.2020



***Şahin Yaşar oğlu Cavadzadə***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## DƏNİZ GÖZLÜ ŞƏHİDİM

Gözlərin dənizin mavisi idi,
Sehrinə salırdı baxan hər kəsi.
Mənalı baxışın dərinliyindən
Sanki dil açırdı ruhunun səsi.

İndi o gözlərin həsrətin çəkər,
Səni sevənlərin, dostun, yoldaşın.
Anan ürəyinə qəm-kədər əkər,
Qurumaz illərdi gözünün yaşı.

Heç kim əvəz etmir, ay Şahin, səni,
Sənin yoxluğuna dözmür ürəklər.
Bir soyuq daş üstə gülən çöhrəni
İndi tumarlayır əsən küləklər.

Adın dilimizin əzbəri olub,
Bu millət unutmaz səni, şəhidim.
Gənc ömrün vətənçün zamansız solub
Vətənin uğrunda canını verdin.

08.04.2019





## BAXIŞIM DİKİLDİ BAXIŞLARINA

Gəlmişəm məzarına,
Çiynimdə şanlı bayraq.
Səni əzizləyirmi
Anan tək ana torpaq?

Axı sən bu torpağı,
Candan əziz tutmusan.
Torpaq, vətən deyəndə
Hər şeyi unutmusan.

Hər zaman heyran oldum,
Sənin vətən eşqinə.
Sən qanla məlhəm oldun
Vətənimin dərdinə.

Sənin axan qanını,
Mən müqəddəs bilmişəm,
Şəhidim, dilim susub
Sətirlərlə dinmişəm.

Şahin, qəhrəmanlığın,
Dillərə dastan olub.
Neçə ürək bir anda,
Həsrətin ilə dolub.

15.08.2019



***Məhəbbət Zaman oğlu Mirzəyev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur .***

## SƏNSİZ «AĞLAYAN» İLLƏR

Görüşünə biz gəlmişik, qəhrəman,
Qucaqlayıb məzar daşını anan.
Darıxmışıq isti nəfəsin üçün
Sənsiz illər acı yaşatdı yaman.

Sənsiz yanır sinəmizdəki ürək,
Kaş ki, yenə nurlu üzünü görək.
Çox arzular qəlbimizdə yas tutub
Nakam qoydu onları zalım fələk.

Qismət olmaz belə ölüm hər kəsə,
Biz borcluyuq verdiyin son nəfəsə.
Sən zamansız köç etdin bu dünyadan,
Dərdin bizi məhkum edib qəfəsə.





Bu torpaqlar sanki şəhid qoxuyur,
Laylay deyən ana ağı oxuyur.
Bir zamanlar gül qoxunu duyanlar,
İndi sənin məzarına gül qoyur.

Şəhadətin mübarəkdir, Məhəbbət,
Ürəklərdə yaratmısan səltənət.
Vətən sən tək oğullarla fəxr edir,
Bütün xalqım adına edir hörmət.

12.04.2017



***Rəşid Rövşən oğlu Mehdiyev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## QANLA YAZDIN ADINI

Qəhrəman şəhid olub, sonra qəhrəman olmaz,
Qəhrəmanlar dünyaya qəhrəman tək doğular.
Onların vətən eşqi ana bətnindən başlar,
Duyduqları ilk kəlmə – «Vətən anandır» – olar.

Qəhrəmanlar canların vətənçün sayar heçə,
Vətən eşqi önünə çətin başqa eşq keçə.
İgidlərin qəlbdəki ən böyük arzusudur,
Onlar istər vətənçün şəhid tək candan keçə.

Sanki Allah Rəşidi bu arzuya yetirdi,
Çox sevdiyi vətənin uğrunda can itirdi.
Səhərin sərin mehi əsib yetdi bir anda,
Onun şəhid xəbərin əsən yellər gətirdi.

Ana bala ölümün görməz olardı, Allah,
Ürəkləri dağlayır ananın çəkdiyi ah.
Dünyası talan olub, zülmət çöküb üstünə,
Deyir gecəm sonsuzdur açılmaz daha sabah.





Atanın gözündə qəm, dərdi özündən böyük,
Sanki çiyinlərinə yığılıb tonlarla yük.
Tək təsəlli oğlunun o müqəddəs adıdır,
Bala dağı, acısı ruhunda əbədi yük.

Toysuz gedən qardaşın xınası yaxılmadı,
Ondan nə bir nişanə, nə yadigar qalmadı.
İki bacı itirdi həyatda dayağını,
Qardaş adlı kədərin təsəllisi olmadı.

Yar ürəyin dağladı yar gedişi həmin gün,
Sanki ömürlük oldu o cəhənnəmə sürgün.
Qanayan ürəyinin yarası sağalmadı,
Gözləri yaşlı qaldı, dərdi artdı günbəgün.

Çətindir bu acıya dözmək, eh, tab gətirmək,
Canına can olanı cavan yaşda itirmək.
Onlar şəhidlərinin adına sığınırlar,
Qismət olmaz hər kəsə şəhid kimi can vermək.

«Şəhidlər ölməzdilər» bu söz deyilmir əbəs,
Cənnət sakinləridir bunları bilir hər kəs.
Bu vətən tarix boyu var olacaq hər zaman,
Qəhrəmanlar vətənçün verərlərsə son nəfəs.

12.04.2017



***Dilsuz Məmmədağa oğlu Qarayev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## TABUTA SIĞMAYAN ŞƏHİD

Çox dərindir qəlbdə yara,
Qəlbim olub para-para.
Şəhid dərdi çəkənlərin,
Bəxti olur zülmət, qara.

Fərqli ömür, bənzər yazı,
Nakam qalıb neçə arzu.
Xoşbəxtlik sanki lal olub,
Kəsilib gəlmir avazı.

Rəngli tabut, kəfənsə ağ,
Çəkilib qəlblərə bir dağ.
Bəxtsiz ana, fəryad edir,
"Deyir balam olardı sağ".

Sağalmaz şəhid yarası,
Ucaldı ölüm sonrası.
«Tabutuna sığmayanım» ,
Deyib ağladı anası.





Həm bir igid, həm qorxusuz,
Bir oğuldu şəhid Dilsuz.
Deyirdi "qala bilmərəm,
Bircə gün də mən ordusuz" .

Səngər idi ev-eşiyi,
Çəkdi o vətən keşiyi.
Ürəyində söyləyirdi,
«Kaş görəm bala beşiyi» .

Yarı oldu bəxti qara,
İndi sarılıb məzara.
O ağlayır için-için,
Nakam qalan arzulara.

Şəhid adın təsəllidir,
Sənsizlik qəlbləri didir.
Şəhadətə ucalmısan,
Sənin adın əbədidir.

21.10.2017

## ŞƏHİD DİLSUZ

Bir vətən övladı qan ilə yazıb,
Öz adın tarixin qan yaddaşına.
Hər kəs heyran oldu bu qəhrəmana
Dünyaya səs salan o savaşına.

Cismindən damlayan son damla qanı,
Vətənçün axıdıb torpaq üstünə.
Alıb neçə-neçə erməni canı
Dağ çəkib hər zaman düşmən köksünə.

Cisminə baxanda qürrələnərdi,
Bu vətən torpağı, vətən səması.
Doğmalar "qəhrəman Dilsuz" deyərdi
Vətənə bağlıydı hər bir arzusu.

Elə bu arzusu onu ucaltdı,
Şəhadət adlanan ulu zirvəyə.
Əbədi vətənin qoynunda yatdı
Yoxluğu dərd olub neçə ürəyə.

İndi həsrət qalıb onu sevənlər,
Dilsuzun nur saçan gül camalına.
Bilirəm vətənçün canın verənlər
Çatır şəhid kimi öz amalına.

19.12.2019





***Seymur Qulamhüseyn oğlu Baxışov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ŞƏHİDİN İZİ

Vətənin igidləri saya, hesaba gəlməz,
O igidlər heç zaman ölüm qorxusu bilməz.
Düşmənə qan uddurar qəhrəman, nər oğullar,
Onlar zəfər yolunu yarıda qoyub dönməz.

Onların damarında vətən qeyrəti axar,
Gözlərindəki qisas bir şimşək kimi çaxar.
İllərin qisasını ürəklərdə bəslərlər
Gözləri düşmənlərə yaman nifrətlə baxar.

Bir baxışla düşmənin qəlbini dələn Seymur,
Döyüşlərdə heç zaman kənarda sakit durmur.
Baxışı iti olan «Baxış» ləqəbli igid,
Düşmən ordusun bir an gözün açmağa qoymur.

O ağlatdı çox zaman erməninin anasın,
Düşmənini odladı, dedi, qoy onlar yansın.
Gözlərinin önündə canlandı Xocalımız,
İstədi düşmən üçün həmin səhnə canlansın.

Məhv elədi düşmənin onlarla əsgərini,
O qazandı igid tək layiq olduğu yeri.
Təltif oldu medalla vətən oğlu, el oğlu
Düşmənlər hiylə qurdu, «quyu qazdılar» dərin.

Şanlı Aprel günləri tarix təkrar yazıldı,
Neçə ömrün üstünə qara cizgi çizildi.
Qəhrəmanlıq göstərən şəhidlər arasında
Seymura da torpaqda soyuq məzar qazıldı.

Şəhid oldu vətənçün, şəhadətə yol aldı,
Getdiyi şərəf yolu ondan yadigar qaldı.
İndi onun etdiyin çoxu təkrar edəcək
Tarixdə qəhrəman tək o da izini saldı.

17.05.2017







***Urfan Üzeyr oğlu Vəlizadə***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## VƏTƏN SƏMASINDA TAPŞIRDI CAN

Vətənin qəhrəman övladı Urfan,
Torpağı müqəddəs sayıb hər zaman.
Dar gündə səmadan buludu yarıb
Yetirib özünü vətənə o an.

Vətən səmasını bir ocaq sanıb,
Hər zaman torpağın qeydinə qalıb.
Süzüb göy üzündə bir qartal kimi
Onun bu uçuşun quşlar qısqanıb.

Qəlbinə dağ idi Qarabağ dərdi,
Deyirdi "hərbiçi canlı sipərdi.
Bir gün alacağıq o torpaqları"
O zəfər gününü xəyal edərdi.

Oldu son mənzili vətən səması,
Yetişdi hər kəsə şəhid sədası.
Əbədi zirvəyə yazıldı adı,
Adı yaşayacaq illər sonrası.

29.05.2017



*Nicat Bəhruz oğlu İsgəndərov*

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## BƏY OTAĞIN BOŞ QALIB

Bu necə dərtdir Allah, ürək dözmür bu dərdə,
«Şəhidim var» deyirlər getdiyim hər bir yerdə.
Ağ kəfənə bükülmüş arzular da ağlayır,
Sanki göz yaşı tökür onlara yer də, göy də.

Necə ağlamasın ki, fələyin bu oynuna?
Nişanlı bir gənc köçüb bu torpağın qoynuna.
Bəy otağı boş qalıb, özü məzarda yatıb
Haray salın cahana, bəlkə Nicat oyana.

Qurulu toy mağarı dönüb matəm evinə,
Niyə sadiq qalmadın yarla olan əhdinə?
Xoşbəxtliyi səninlə bir məzarda dəfn oldu
Çətin ki, səndən sonra yarın birdə sevinə.





Sənin nakam gedişin ata belini bükdü,
Dayağı gedib artıq, dünya başına çökdü.
Hər gün oğul evinə gəlib, getmək istəyir
Onunçün öz evindən məzarına yol çəkdi.

Bacın bəy xonçaların düzür məzar daşına,
Qoxunu ala bilmir həsrətdi qardaşına.
Aciz qalıb bir bacı kədər, həsrət əlində
Çəkdiyi iztirablar cəm olub göz yaşına.

10.04.2017

## ARZUSU TALAN OĞUL

Xonçası qalan oğul,
Arzusu talan oğul.
Sən gedən gündən oldu
Bu dünya viran oğul.

Cavan oğul itirdim,
Həsrət nə imiş bildim.
Oğlumun məzarında
Kədərdən gül bitirdim.

Qanadım, qolum sındı,
Köksümdə od qalandı.
Nicatım gedən o gün
Bağrımın başı yandı.

Bəy evi bağlı qalan,
Bir qönçə gül tək solan.
Dərdimi gözəl anlar
Balası şəhid olan.

Eşidin, duyun məni,
Qan suladı çəməni.
Məni oğulsuz qoyan
Yansın yağı düşməni.

28.04.2019







***Novruzov Mirzə Səlvər oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## VƏTƏNİN DƏRDİN DUYAN

Vətən və xalq üçün can verən şəhid,
Ucalan dağlara bənzəyən igid.
Səninlə fəxr edir bu millət, bu xalq
Heç vaxt sevinməsin o düşmən, yezid.

Zəfər qazanmaqçün bu yolu tutdun,
Vətəni düşünüb «səni» unutdun.
İz saldın vətənin hər qarışında,
Dərdini anladın yaralı yurdun.

Qisas hissi ilə döyündü qəlbin,
Vardı ürəyində bir vətən dərdin.
İntiqam vaxtının yetişdiyi an,
Düşmənin köksünü min yerə dəldin.

Adın vüqarıntək göyə ucaldı,
Şəhidlik adından hər kəs güc aldı.
Cismin doğmalardan ayrılıb getdi,
Mirzə, adın dildə əbədi qaldı.

09.04.2020



***Əsgərli Nurlan Bayram oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur .***

## VƏTƏNİ NAMUS BİLƏN

İnsan doğulan anda bəxt yazısı yazılar,
Hərənin öz qisməti, öz alnına cızılar.
Kiminin ömür yolu uzun olar, gen olar
Kimi gözdə yaş olub, arzulardan süzülər.

Bu vətən sevgisini ucadan uca tutan,
Uşaqlıqdan hər gecə bayraqla birgə yatan,
Nurlanın sinəsində bir yara göynəyirdi
Çünki yuxularına var idi haram qatan.

Hər gecə Qarabağı yuxusunda görərdi,
Vətən dərdin dərdlərdən ən üstünü bilərdi.
«Canımı fəda edib torpağımı alacam,
Torpağım namusumdur, qeyrətimdir» - deyərdi.

Deyirdi «İgid oğul hürən itə bənzəməz,
Canavar tək lal olar,qorxu nədir o bilməz.
Canın qurban etməyi gözə alan oğullar,
Vətənin dar günündə vətənə üz çevirməz».





Bu ammalla döyüşdü iki qardaş yan yana,
Düşmən mərmi tuşladı son döyüşdə Nurlana.
Bir anda qardaşının dünyası talan oldu,
Qardaş gördü qardaşı cismi batıb al qana.

Qardaş, qardaş nəşini aldı çiyinlər üstə,
Addım-addım yeridi o ahəstə-ahəstə.
Bu dünyanın ən ağır yükünü daşıyırdı
Ola bilməz belə qəlb insan olan hər kəsdə.

Yazdı igid, qəhrəman adını tarixlərə,
Bu vətən əmanətdir şəhidlərdən bizlərə.
Şəhidlər unudulmur əbədi yaşayırlar
Onların isimləri həkk olunub qəlblərə.

## ŞƏHİD QOXULU ANA

Oğul dərdi saçlarına dən salan,
Balası tək ucalara ucalan,
Təkcə şəhid kəlməsindən güc alan
Bir ana var ürəyində qəm yatır,
Çıxan Günəş dərdlərini oyadır.

Sıldırımlı qayaları andırır,
Dərdi mənim ürəyimi yandırır,
Nurlansızlıq könül telin sındırır
Dərdli-dərdli baxır ananın gözü,
Dünyaya od salır qəlbinin közü.

Digər oğlu döyüş izi daşıyır,
Ziba ana bir acıyla yaşayır,
Əsalətli duruşu göz oxşayır,
Başa tacdır şəhidimin anası,
Qəlb yaramdır qəlbindəki yarası.

11.05.2020





***Babək Vəfadar oğlu Abidov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## QƏLB QOVURUR ARZULAR

Ürəklərin acısı yığılıb qalaq-qalaq,
Bilmirəm hansı evin qapısına iz salaq?
Dağlanan ürəklərin acısı dağ boydadı
Qəlbi dağlananların könlünü necə alaq?

Necə təbəssüm saçsın ağlar qalan o gözlər?
Sinəyə bir dağ çəkir deyilən bütün sözlər.
Qovurur alov kimi ürəkləri bu acı
Bir şəhid məzarına aparır bizi izlər.

Bir ana aciz qalıb oğul dərdi əlində,
Oğullu arzuları qapanıb ürəyində.
İndi ondan xatirə cansız əşyalar qalıb
Oğul dərdi, qəmi var var ağaran hər telində.

Sükut çöküb kədərdən bir atanın üzünə,
Həsrət qalıb oğlunun kəlməsinə sözünə.
Sinəsində dağ olub zamansız gələn ölüm
Sanki oğlu görünür hər addımda gözünə.

Bir qardaş iki bacı çəkir qardaş həsrəti,
Onlar bu gediş ilə barışa bilmir qəti.
Uşaqlıqdan xəyallar qururdu bu uşaqlar
Vaxtsız ölüm deyildi heç birinin niyyəti.

İndi o xoş günlərdən qalıb cansız şəkillər,
Kaş ki, geri dönəydi Babək qoxan o illər.
Bir zaman sevinc saçan gözlər indi yaş tökür
Məzarın sığallayır Babəki saran əllər.

Şəhid olan insanın dərdin bütün xalq çəkər,
Çünki şəhid öz qanın xalqı uğrunda tökər.
Örnək olar şəhidin göstərdiyi şücaət
Şəhidlər ürəklərə əzmin toxumun əkər.

28.04.2017







***Elvin Sədrəddin oğlu Qayıbov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## VƏTƏN UĞRUNDA

Boynu bükük bütün nakam arzular,
Fəryad edib üzərimə qaçdılar.
Toy sədası qulaqlardan getməmiş
Elvinimə yas mağarı qurdular.

Nakam getdi arzuları ürəkdə,
İnsaf yoxmuş canlar alan fələkdə.
Arzuları sinəmizi dağlayır
Bir bala görmədi balam bələkdə.

Nazlı yarı dərddən soldu, saraldı,
Gənc yaşında onun bəxti qaraldı.
Elvinin getdiyi uzun yolları
Yaz günündə çovğun aldı, qar aldı.

Xəstə ata çöküb qaldı kənarda,
Gözlər yolda, ürəksə intizarda.
Tək oğul balası kama çatmamış
Arzularla dəfn olundu məzarda.

Sızıldadı iki bacı ürəyi,
Getdi daha evlərinin dirəyi.
Elə dərdə məhkum oldu bacılar
Heç bir loğman edə bilməz köməyi.

Şəhid olub mənim balam ay ellər,
Ağı desin balama bütün dillər.
Ağladıqca göz yaşlarım sel olur
Göz yaşıma həsəd aparır sellər.

14.04.2018







***Sahil Həsrət oğlu Şirinov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## TORPAĞI VƏTƏN ETDİ

Tanrının dərgahına gedər şəhid karvanı,
Müqəddəs vətən üçün şəhidlər verər canı.
Hər zaman dediyimiz bu söz əbəs deyildir
«Ölməz olur o kəs ki, şəhid tək tökər qanı.»

Şəhid haqq dünyasında əhli cənnət sayılar,
Onların tarix boyu isimləri duyular.
Xoş o kəsin halına şəhid kimi göz yumub
Əbədi dünyasında xoşbəxt kimi ayılar.

Qismət olmaz hər kəsə şəhadəti qazanmaq,
Bir xalqın, bir millətin ürəyində yaşamaq.
Biz borcluyuq hər zaman Sahil kimi oğula
Onun arzusu idi vətənçün şəhid olmaq.

Ona necə bir ürək bəxş etmişdin, İlahi?
Çalışırdı qəlb qırıb qazanmasın günahı.
Belə oğul itirən bir ana fəryad edir
Ürəyə atəş salır bədbəxtin nalə, ahı.

Toy mağarı boş qalan oğluna lay-lay deyir,
Nakam qalan arzusun yana-yana söyləyir.
Bu dərdə dözə bilmir ata, ana ürəyi
Ata qəlbi kədərdən göyüm-göyüm göynəyir.

Bəy xonçası düzülüb indi məzar başına,
Qardaşı matəm tutur öz şəhid qardaşına.
Təsəlli tapa bilmir yanır bacı ürəyi
Bütün dünya qərq olub gözlərin göz yaşına.

Şəhidim vətən üçün cavan yumdu gözlərin,
Şəhid olanlar ölmür, silin yaşlı gözləri.
Onlarda vətən eşqi, bitib, tükənmək bilmir,
«Vətənə canım fəda» olur ən son sözləri.

20.04.2017







***Ravil Elman oğlu Novruzov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİD OLMAĞI BİR ŞƏRƏF SANDIN

Sən sonsuz sevirdin vətən torpağın,
Bir cənnət sanırdın meşəsin, dağın.
Ağlın kəsən gündən bunu söylədin
«Kəsəcəm vətəndən düşmən ayağın.»

Deyirdin "qurbandır vətənə canım,
Qisasçün dövr edir damarda qanım.
Bir gün şəhid olum vətən yolunda
Yetər ki, var olsun Azərbaycanım.

Vətəndi sinəmdə döyünən qəlbim,
Qarabağ olubdur sağalmaz dərdim.
Düşmənin aldığı həmin canların
Kaş ki, qisasını ala bilərdim".

Yetişdi həmin gün, çatdı həmin an,
Vətən torpağına çiləndi al qan.
Qəlbində var olan arzu çin oldu
Ravil, vətən üçün fəda etdin can.

Sənin can verdiyin həmin bu torpaq,
Cana can bildiyin üç rəngli bayraq,
Sizlərin verdiyi can bahasına
Bütün tarix boyu dalğalanacaq.

20.04.2017





***Rusif İbrahim oğlu Ağayev***
***2016-cı ildə Aprel döyüşlərində qəhrə-mancasına şəhid olmuşdur.***



**ŞƏHİD YARIM**
**(Şəhidin xanımının duyğularına ithafən.)**

Əlimdə bir dəstə gül gəlmişəm görüşünə,
Artıq neçə zamandır həsrətəm gülüşünə.
Niyə belə uzaqdan boylanırsan? Yaxın gəl!
Tellərim həsrət qalıb sənin nəvazişinə.

Bax əzizim gizlincə mən yanına gəlmişəm,
Sənin doğum günündür «evini» bəzəmişəm.
Gecənin qaranlığı taleyimə bənzəyir
Sən gedən gündən bəri qaraya bürünmüşəm.

Sənsizliyin acısı ürəyimi dağlayır,
Sevgiylə baxan gözüm indi dərddən ağlayır.
Narahat olma yarım, sevgin ürəyimdədir
Qəlbim sənin sevgini əmanət tək saxlayır.

İnan çox darıxıram isti nəfəsin üçün,
Yoxluğundan tükənib mənim taqətim, gücüm.
Fələk canımı alsın yarım, qovuşum sənə
Sən olmayan dünyadan mən istərəm tez köçüm.

16.04.2017



***Əbdülməcid Nadirşah oğlu Axundov 2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## BİR OVUC VƏTƏN

Hələ adın çox ürəkdə yer edəcək,
Neçə insan səni örnək göstərəcək-
«Əbdülməcid qürurumdur» – söyləyəcək
Sən ölməzlik qazanmısan gənc yaşında,
İz qoymusan Şanlı Aprel savaşında.

O döyüşdə göstərmisən böyük hünər,
Qüvvətinə şahid olub bütün bəşər.
Şəhid adın bu xalq başına tac edər
Mücəvhərsən, cah-cəlalsan torpağımda,
Bərq vurursan ay-ulduzlu bayrağımda.

Sən vətənsən, vətənsə sən, qəhrəmanım,
Borcumdur ki, sənin adını mən anım.
İstərəm ki, qanın kimi axsın qanım,
Qarabağda, Şuşanın Cıdır düzündə,
Bircə ovuc vətən olum yer üzündə.

27.05.2020





## ANA FƏRYADI

Sarıl mənə ay oğul,
İsti qolların ilə.
Qoy sevincdən yaş axsın
Gözümdən gilə-gilə.

Sinəmə bir dağ çəkir,
Bu səssiz baxışların.
Gözlərim əvəz edir
Buludun yağışların.

Mən dözmürəm ay bala,
Bu vaxtsız gedişinə.
İllərdi ki, həsrətəm
Tək «ana» deyişinə.

İndi rəsmində donub,
Çöhrəndəki təbəssüm.
Necə rəva bilirsən
Hər yeni gün mən ölüm?

Qəlbimə dağ çəkilib,
Balasızlıq adında.
Dərdin qəlbin sızladır
Dostla birgə yadında.

Şəhid Əbdülməcidim,
Dərdin dağa bənzəyir.
Ceyran anan evini
Rəsmin ilə bəzəyir.

Çox çətindir İlahi,
Bala deyib ağlamaq.
Bala cismi yerinə
Bir məzar qucaqlamaq.

29.07.2019





***Orucov Mühüd Qurban oğlu***



***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## XALQIN İGİD MÜHÜDÜ

Şücaətin dastan olub dillərə,
Səs salmısan uzaq, yaxın ellərə,
Sən kükrəyib çəkdiyin anda nərə
Düşmən köksü min yerə bölünərdi,
Qəlbin vətən eşqiylə döyünərdi.

İzin ilə gedən mərdlər çox oldu,
Ürəyinə tək vətən eşqi doldu,
«Vətən» – deyə, hey ürəyin qovruldu
Hər gün bir az qisas hissin böyüdü,
Sən qorxmadan düşmən üstə yürüdün.

Qəhrəman deyirdi hər bir kəs sənə,
Neçə arzuların var idi yenə.
Sən can verdin dar məqamda vətənə
Düşmənləri al qanına bürüdün,
Mühüd, gördü hər kəs qolunun gücün.

Qələbəydi tək amalın, niyyətin,
Döyüş anı sənə olmurdu çətin.
Dünyaya yayıldı ünün, qüdrətin
Düşmənin ordusun yıxdın, sürüdün,
Xalq tanıdı igid oğlu Mühüdün.

13.04.2020





***Rəvan İsmayıl oğlu Nurayev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ŞƏHİDİN VƏTƏN EŞQİ

Bu vətən torpağına,
Çilənib şəhid qanı.
Rəvan da şəhid olub
Vətənçün verib canı.

Hələ iki yaşında,
Fələk qoydu atasız.
Beşiyinin başında
Tənha gördü anasın.

Elə uşaq çağından,
Görüb əzab, əziyyət.
Uşaq yaşda böyüyüb
Daşıyıb məsuliyyət.

O zamandan qəlbinə,
Dolub bir vətən eşqi.
Hərdən gəlib dilinə
«Şəhid olardım kaş ki».

Həmin sonsuz arzular,
Onu çəkib səngərə.
Deyib "igid oğullar
Getməlidir əsgərə.

Bu vətənin borcunu,
Verməliyik can ilə.
Mərd oğullar ovcunu
Dolduracaq qan ilə".

Elə oldu, qanını,
Çilədi torpağına.
Qurban etdi canını
Üç rəngli bayrağına.

Bir ananın ümidi,
Olubsa para-para.
Demək dayaq olanı
Qismət olub məzara.

İndi cansız məzarın,
Sinələrə dağ çəkir.
Əzizin, doğmaların
Məzarına gül əkir.





Çox sevdiyin bu torpaq,
Səni basıb bağrına.
Qoy torpaq məlhəm olsun
Hər yarana, ağrına.

Məzarın and yeridir,
Bizə şəhid qardaşım.
Dərdin qəlbimi didir
Gözdən axır göz yaşım.

13.04.2018

## OĞULSUZ QALAN ANA

“Oğul” deyib quruyub dil-dodağın,
Sağalmazdır ürəkdə olan dağın.
Neçə ildir sən Rəvansız qalmısan
Duymursan balanın heç səs-sorağın.

Ümidlərin Rəvanla bir talanıb,
Ürəyində sanki ocaq qalanıb.
Əynindəki qara libasın kimi
Ömrün-günün qara rəngə boyanıb.

Rəvan idi hər söhbətin, hər sözün,
Daha gülmür ağlar qalıbdır gözün.
Sil göz yaşlarını, şəhid anası
Balan qurban etdi vətənə özün.

12.04.2019







***Aqil Qismət oğlu Məlikov***

***2016-cı ildə Füzuli istiqamətində gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.***

## QİSASIN ALAN ŞƏHİDİM

Gözümün yaşından göylər ağladı,
Bir şəhid həyatı mən vərəqlədim.
Onun tək qəhrəman oğul yerində
Elə mən özüm də olmaq istədim.

Döyüşdü vətənin dar məqamında,
Vətən eşqi vardı onun canında.
Düşmən ordusuna gücün göstərdi
Şanlı Apreldəki döyüş anında.

Həmin an bir ana ürəyi əsdi,
Dedi dərd çəkməsin analar bəsdi.
Dözmədi ürəyi ah-nalələrə,
Əcəl onun ömrün yarıda kəsdi.

Bu ölüm Aqili sarsdı dərindən,
Düşmən xəncərlədi sanki qəlbindən.
Böyüdü qəlbində intiqam hissi,
O qisasın aldı düşmənlərindən.

Bir payız anında günorta çağı,
Köksünü nişangah elədi yağı.
Şəhid tək ucaldı göyün üzünə
Vurdu ürəklərə ayrılıq dağı.

09.09.2017





***Nurlan Rasim oğlu Abdullazadə***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## QANI TORPAĞIMA ÇİLƏNƏN ŞƏHİD

Zəhmətlə bir oğul böyüdür ana,
Gözünün nurunu həsr edir ona.
Vətən məhəbbəti, bayraq sevgisi
Elə uşaqlıqdan hopur qanına.

Hələ o dünyaya göz açan zaman,
Dedilər "əsgərdir səngərdə atan".
Ana laylasında hey söyləyərdi
«Oğlum, böyü sən də səngərdə dayan».

Ananın arzusu həyata keçdi,
Nurlan "vətən" deyib səngəri seçdi.
Üç rəngli bayrağı bağrına basıb
Zəfər bayramının andını içdi.

Verdiyi sözündən dönmədi bir an,
Səngərdə döyüşlər getdiyi zaman.
Şığıdı qartal tək düşmən üstünə,
Bu vətən uğrunda o da verdi can.

Soldu arzuları vətən yolunda,
Yatdı çox sevdiyi torpaq qoynunda.
Atanın, ananın qəlbi dağlandı,
Bacı oynamadı qardaş toyunda.

Əlləri xınasız gedən şəhidim,
İstərəm qəlbimi əlimlə didim.
Gedən şəhidlərin dərdi önündə,
Acizəm, bilmirəm axı nə edim?

12.10.2017





***Şulan Bayram oğlu Bayramov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## YAŞADACAQ TARİX

Bir igidin ömrü yarımçıq qaldı,
Əcəl onu yaxınlarından aldı,
Ürəklərdə silinməyən iz saldı
Unutmarıq biz igid, qəhrəmanı,
Sevənləri yaşadacaq Şulanı.

Onun adı dastan oldu dillərə,
İgidliyi yayıldı çox ellərə,
Göz yaşları bənzər coşan sellərə
Vətən üçün verdi o əziz canı,
Sevənləri yaşadacaq Şulanı.

İndi yağar gözlərdən qəm yağışı,
Yaddaşlara həkk olar baxışları,
Qürurludur kiçik şəhid qardaşı
Soraqlayır, deyir: "Şəhidim hanı?"
Sevənləri yaşadacaq Şulanı.

Bütün ellər şəhidinə can deyir,
Qüssə-kədər vətən qəddini əyir.
Ana, ata göz yaşını gizləyir
Deyirlər geri qaytarsaq zamanı,
Biz görərdik igidimiz Şulanı.

Dözmür ürək boğulur qəm-kədərdə,
Çarə tapmaz insan oğlu bu dərdə.
Gedən dönməz dünyaya geri birdə
Qisas alaq yerdə qalmasın qanı,
Sevənləri yaşadacaq Şulanı.

10.05.2017







***Cabbarxan İlham oğlu Hacıağayev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## İKİ MƏZARLI ŞƏHİD

Bir matəmə qərq oldu, doldu buludun gözü,
Ağlayıb isladacaq çəməni, çölü, düzü.
Bu dərdin böyüklüyü agah oldu cahana
Sızlatdı ürəkləri Cabbarxanın son sözü.

Od qoyub ürəklərə onun son istəkləri,
Dada bilmədi şəhid sevdiyi yeməkləri.
İndi ondan xatirə sonuncu məktubudu
O kağızda yazılan sonuncu sətirləri.

Nə bilərdi saydığı ömrünün son anıdır,
Ürəkdəki arzuya yetişmək məqamıdır.
Mərmi onun cismini parça-parça elədi
Nəşi bir yanda qaldı, ayağı bir yandadır.

Ayağı dəfn edildi azad olan torpaqda,
Bu igidlər qoymadı o torpağı tapdaqda.
Cavanlar can verdilər Azərbaycan yolunda
Neçə şəhid qanı var dalğalanan bayraqda.

İndi o şəhidləri sevənləri ağlayar,
Onların yoxluqları ürəkləri dağlayar.
Kaş ki, heç vaxt, heç zaman müharibə olmasın
Müharibə çox ömrün kitabını bağlayar.

28.04.2017





***Elimdar Səlimxan oğlu Səfərov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## CƏNNƏT SAKİNİ

Əbədi həyata yumdun gözünü,
Torpağına qurban etdin özünü,
Hər zaman qorxmadan dedin sözünü:
«Bu vətən düşməndə qalarsa ölləm,
Düşməni sarsacaq sonuncu gülləm».

Çəkdin bu vətənin, şərəf, qeyrətin,
Böyüdü düşmənə qəlbdə nifrətin.
Azad olmaq idi arzu, niyyətin
Sənin yoxluğunla var oldu vətən,
Sən oldun vətənin köksündə bitən.

Dikildi bir məzar torpaq üstünə,
Kədərdən əyildi çox qamət önə,
Bu sözü deyirik biz dönə-dönə
Sən, cənnət sakini, şəhid Elimdar,
Sənə ürəklərdə bitməz sevgi var.

22.12.2019

## ŞƏHİD ANASI

Sən elə bir uca ad daşıyırsan,
Həsrətlə, nisgillə bir yaşayırsan,
Sən qarlı dağlara çox oxşayırsan
Sezilir uzaqdan qəlbin yarası,
Dərdin qəlb dağlayır, şəhid anası.

Bir həsrət yükünü yığıb çiyninə,
Qara libasını geyib əyninə,
Sığdırıb ən böyük dərdi qəlbinə
Dilə gətirirsən şəhid ağısı,
Dərdin dərdimizdir, şəhid anası.

Vətənə can verib oğlun Elimdar,
Ondan bizə qalan bir gözəl söz var,
«Bayraq kəfən mənə, torpaqsa məzar..»
Əbədi var oldu ölüm sonrası,
Oğlun qəhrəmandır, şəhid anası.

05.03.2020





***Həmidov Orxan İbrahim oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olub.***



## VƏTƏNİN ŞƏHİD OĞLU

Bir ölüm var qismət olmaz hər kəsə,
Vətən yaşar oğlu ona can versə.
Torpaq şahid olar şəhid olanın
Can üstündə verdiyi son nəfəsə.

Şəhid qanı çilənərkən torpağa,
Səda salar mələklər sola, sağa.
Orxan şəhid kimi canından keçdi
Daxil oldu cənnət adlı bir bağa.

Vətənindən qeyri eşqi olmadı,
Yolu üstə övlad, ailə durmadı.
Əlinə silah aldığı ilk gündən
Düşmənlərdə intiqamın qoymadı.

Qazanarkən Apreldəki savaşı,
Gözlərindən töküldü sevinc yaşı.
İllər sonra azadlığın uğrunda
Can verdi onunla neçə yoldaşı.

Həmin gün yurduma səda yayıldı,
Çox yatanlar yuxusundan ayıldı.
Cavan yaşda şəhadətə ucalan,
Neçə cavan oğul şəhid sayıldı.

29.03.2020





***Samir Ziyəddin oğlu Kaçayev***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



**SUSUB BAXIŞLARIN**

Arzular, arzular, nakam arzular,
İndi sizdən qalır qəmli duyğular.
Viranə diyarı xatırladırsız,
Sizə yoldaş olur sönük xəyallar.

Sızlayar ürəklər şəhid dərdindən,
Anan yaralanıb düz ürəyindən.
Şəklini qəlbinə sıxıb saxlayır
Bir məlhəm istəyir sənin şəklindən.

Dözməyir ürəyi oğul dağına,
Zülm ilə çatmışdı gənclik çağına.
Çiçəkli yaz günü çovğuna düşdü
Ölüm daxil oldu ömür bağına.

O getdi evinin işığı söndü,
Atası dərd tapdı, qanadı sındı.
Xoşbəxtlik evindən yaman gen düşdü
O gündən taleyi qaraya döndü.

Bacı tənha qaldı gözlərində yaş,
Yalvardı: «Nə olar geri dön qardaş.
Sən mənim var olan səadətimdin
Getmisən qəm olub qəlbimə yoldaş»

Hələ çatmadığın arzular sızlar,
Tapmadın özünə sevgili, nə yar.
Sənin yaratdığın cansız heykəllər
Daha yoxsan deyə çəkirlər qübar.

Şəhidlər qəlblərdə yaşar hər zaman,
Onlar bu vətənə aşiq olan can.
Qəlblərə hökm edir vətən sevgisi
Vətənçün canların edirlər qurban.

24.04.2017





***Müşfiq Arif oğlu Orucov***
***2016-cı ildə Aprel döyüşlərində***
***qəhrəmancasına şəhid olmuşdur.***



## VƏTƏNİN OĞUL PAYI

Vətən adlı həsrətim,
Qəlbimə sığışmadı.
Düşmənlərə nifrətim,
Açılan hər səhərlə
Sanki yeni başladı.

Zəngilan tikan üstə,
Ötürürdü günləri.
Zəngilan düşdü xəstə,
Gördü köksündən qopan
Edilən sürgünləri.

Vətənin acısını,
Çox yaşaya bilməzdim.
Vətənimin yasını,
Tuta-tuta heç zaman
Mən ürəkdən gülməzdim.

Şəhid olmaqçün gəldim,
Mən bu yerin üzünə.
Düşmənin bağrın dəldim,
Vətənimə can verib
Qan çilədim düzünə.

Ağlamasın bir kimsə,
«Şəhid Müşfiqim» deyə.
Şəhidin susar səsi,
Ancaq layiq bilinməz
Heç bir şəhid ölməyə.

Şəhid olan ucalar,
Mənim tək şəhadətə.
Adı tarixdə qalar,
Allahım sakin edər
Şəhidləri cənnətə.

18.09.2019





***İsgəndərov Elnur İsgəndər oğlu***



***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

**SINIQ AYNA**
**(Şəhidin xanımının duyğularına ithafən.)**

Sənli xatirələr yenə canlanıb,
Ruhumda, ağlımda, mənim şəhidim.
Ürəyim cismimə susqun qısılıb
Sənin getdiyin gün mən ruhən öldüm.

Əlim əllərindən üzülən o gün,
Xoşbəxtlik əlini üzdü əlimdən.
Sevgi sarayından edildim sürgün,
Sevgini atmadım mən ürəyimdən.

Həsrətin qəlbimi yandırıb, yaxır,
Balandan alıram sənin qoxunu.
Gözüm məzarına həsrətlə baxır
Mən bölə bilmirəm şirin yuxunu.

Sən eşqlə bağlandın vətənə, canım,
Bu eşqin yolunda köçdün dünyadan.
Hələ çox sözləri demədin, yarım
Əl etdin dünyaya sınıq aynadan.

Bizim bəxt aynamız sınıb, töküldü,
Sevincli anlarım qopdu ömrümdən.
Ağ günüm qapqara rəngə büküldü
Yarıma pay düşdü cavan ölümdən.

22.05.2020





***Mahmud Azər oğlu İbrahimov***
***2016-cı ildə Aprel döyüşlərində qəhrə-***
***mancasına şəhid olmuşdur.***



## ŞƏHİDİMİN «LALƏZAR»I

Qoşulmuşuq ömür adlı karvana,
Hər gün bir addım tək geridə qalır.
Əcəl qıyır neçə gəncə, cavana
Müharibə neçə ömrə iz salır.

İgidlər oylağı olan vətənim,
İgidlərin qanı ilə ucalır.
Şəhid ruhunlarını, həm də cismini
Vətənimin sevgisi təslim alır.

Şəhidlər cərgəsində boy göstərən,
Ömrü yarım qalan bir Mahmudum var.
Azadlığın sədasına səs verən,
Şəhidimin qanı olub «laləzar» .

Cənnətdəki şəhadət adlı dağı,
Şəhid adlı tər çiçəklər bəzəyir.
Bu gün işğal olunan Qarabağı
Şəhid ruhu azad görmək istəyir.

07.08.2019



***Çingiz Salman oğlu Qurbanov***

***2016-cı ildə düşmənin canlı qüvvəsini məhv edərkən qəhrəmancasına şəhid olub.***

## TARİX YAZAN QƏHRƏMAN

Mən bir igid tanıram,
Adı dillərdə dastan.
Müqəddəsdir sanıram
O verib torpağa can.

Tək başına qoruyub,
Vətənin dağın, daşın.
Bir an da unutmayıb
Bu vətənin savaşın.

Bir qarlı qış gecəsi,
Vətənə sipər durdu.
Vətən, torpaq yolunda
Çingiz də şəhid oldu.

Qaniçən ermənilər,
Yenə murdarlaşdılar.
Bu dəfə o acizlər
Bir nəşlə savaşdılar.





Vətənin torpağına,
Can verən qəhrəmanı.
Torpaq basdı bağrına
Yandı bir ana canı.

Hələ cavan yaşında,
Tarixə izin saldı.
Soyuq məzar daşında
Gülüşü donub qaldı.

29.12.2019



***Emin İmran oğlu Bağırov***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİD EMİN

Bu vətən yetişdirib Emin kimi bir ərən,
Canını heçə sayıb, vətən üçün can verən.
Bu xalqın damarından igidlik qanı axır
Nə bir deyil, nə iki Mübariz yolun gedən.

Bu torpağa çilənib neçə şəhidin qanı,
Üç rəngli bayraq üçün verib çox igid canı.
Uğrunda qan tökülən yaşadığın vətəndə
Sənin şərəf borcundur öz şəhidini tanı.

Oxuyan hər kəs duysun bu igidin hünərin,
Onlar bizə yaşatdı o azadlıq zəfərin.
Emin bir fırtına tək düşmən üstünə əsdi,
Həyatın xilas etdi döyüşdə əsgərlərin.

Dedi: «Üç qardaşıq biz, biri vətənə fəda,
Qoymaram torpağıma soxulsun düşmən, gəda.
Düşməndən azad etsəm bircə qarış torpağı,
Mən rahatlıq taparam şəhid tək o dünyada.»





«İlk anama deməyin» – bu söz oldu son sözü,
Şəhidlər ölməz olur yaxşı bilirdi özü –
«Mən şəhid olduğum gün şəhadət bayramımdır,
Heç kimin mənim üçün ağlar qalmasın gözü.»

Bir ana yox bir elin gözləri yaşlı qaldı,
Atası al bayrağı məzarı üstə saldı.
Bəy libası geyməyən fədai dəfn olanda
Himninimizin sədası vağzalı tək ucaldı.

12.04.2017



***Mikayıl Yaqub oğlu Vahabzadə***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİD MİKAYIL

Oğul kəlməsini eşidən zaman,
Ana ürəyini kədər bürüyür.
Balasız yaşamaq çətindir yaman
Rumiyyə ananın qəlbi göynəyir.

O heç doymamışdı Mikayılından,
Balası  şəhidlik adı qazandı.
Vətənçün o keçdi əziz canından
Şəhadət adında yerə ucaldı.

Qəlbində gizlənən neçə arzunu,
Özüylə apardı qara torpağa.
Dönülməz elədi fələk yolunu
Həsrəti qəlblərdə çevrildi dağa.





İndi yoxluğunun əzabın çəkir,
Onun doğmaları, dost-tanışları.
Xəyalı hər bir an zülmət tək çökür
Damlayır torpağa gözün yaşları.

Təbəssüm bəxş edən gülən gözləri,
Çəkilmir gözlərdən, itmir nəzərdən.
Sızladır ürəyi onun sözləri
Şəhidim boylanır soyuq məzardan.

19.05.2019



***Ruhin Əşrəf oğlu Qəhrəmanov 2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## RUHU NİGARAN ŞƏHİD

Bu gecə yuxuma gəldin şəhidim,
Nigaran göründün gözlərimə sən.
Nə demək istədin onu bilmədim,
Ancaq hiss elədim sən çəkirsən qəm.

Bilirəm qisasın alınmayıbdır,
O qisas qanını almalıyıq biz.
Azadlıq nəğməsi çalınmayıbdır,
Şəhidim, o günü gözləyirsiniz.

Tarixi qan ilə yazan Ruhinim,
İzinə düşübdür neçə mərd oğul.
Vətən sevgisiydi imanın, dinin,
Bu sevgi heç kimə olmadı məchul.





Döyüşüb qardaşla çiyin-çiyinə,
Vətən torpağına keşik çəkdiniz.
Üç rəngli bayrağı sərib çiyninə,
Arzuya çatdınız, kama yetdiniz.

Şəhid tək can verib vətən yolunda,
Şəhadət zirvəsin fəth etdin Ruhin.
Qəhrəman sipərdi vətən yolunda,
Böyüdür qəlbində intiqam hissin.

16.10.2019

## DƏRDİN BÖYÜKDÜR QARDAŞ

Mən bilsəm sonuncu görüşümüzdür,
Başımı çəkməzdim çiynindən qardaş.
Birlikdə biz vətən andını içdik,
Bizi ayrı saldı sonuncu savaş.

Birgə girdiyimiz döyüş meydanı,
Sənə məzar oldu, mənə qəlb dağı.
Düşmən atəşinə tuş gələn zaman
Qopdu həyatının o son yarpağı.

Cansız bədəninə qovuşduğum an,
Qəlbimin harayı fəğan qopardı.
Həm qardaş, həm də ki, silah dostumun
Cənnətə yazıldı mübarək adı.

03.04.2020





***Mirzəyev Mahir Sabir oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## MAHİR ADLI HƏSRƏTİM

Donub qaldı son baxışın gözümdə,
Oğul sözü qan ağladı sözümdə,
Daha taqət qalmadı ki dizimdə
Sinəm oğul həsrətiylə dağlanır,
Keçən hər gün qəm-kədərlə sonlanır.

Əhd-peyman bağlamışdın vətənlə,
Bu vətəni sən tutdun cana tənlə,
Vətəninə sipər oldun sinənlə
Vətən: - Oğul! – səsləyəndə, dedin, - Can.
Adınla fəxr edir bu Azərbaycan.

Allah səni şəhadətə ucaltdı,
Mahirsizlik bil ki, məni qocaltdı.
Cavan balam torpaq qoynunda yatdı
İmanından gəldi vətən sevgisi,
Bu sevgini bildin qəlb birincisi.

Bircə bacın sənsizliyə qısıldı,
Arzuları boğazından asıldı.
Ürəyinə odlu kösöv basıldı
İtirdi qardaş adlı taci-sərin,
Səndən qalıb qəhrəmanlıq əsərinə.

Həsrət adlı qəm yükümüz var bizim,
Sənsizlikdən ağlayır qəlbim, gözüm,
Rəbbimdən istərəm ki, versin dözüm
Dözə bilək Mahir adlı hicrana,
Onsuzda qəlbimiz batıb al qana.

05.05.2020





***Qurbanlı Fəxrəddin Seyfəddin oğlu***



***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## QƏM PAYI

Gen dünyanın üzünə,
Qıyqacı baxdın getdin.
Şəhid adlı mələk tək
Bu dünyadan köç etdin.

Qan ağladı gözümüz,
Fəxrəddin deyə-deyə.
Sənsizlik ayaq tutub
Yeridi yerə-göyə.

Hər yerdən yoxluğun,
Qəmi-kədəri axır,
Fəxrəddin, anan sənin
Saf simançün darıxır.

Baladan doymayan qəlb,
Sızıldayır durmadan.
Anan yaşaya bilmir
Şəhidim, sən olmadan.

Atanın gözlərindən,
Hey sənsizlik tökülür,
Sən gedəndən sevinci
İlgəyindən sökülür.

Sən idin ailənin,
Sevinc, səadət payı.
Əldən başqa nə gəlir
Ağlamaqdan savayı?

21.05.2020





***Quliyev Mahir Qədir oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ARZUSU QALAN OĞUL

Cahan boyunda kədər,
Düşüb könül bağıma.
Bir şəhidin arzusu
Çevrilib qəlb dağıma.

Gülüşü donub qalan,
Rəsmi sanki dil açır.
Nakam qalan arzusu
Sanki üstümə qaçır.

İllərlə zəhmət çəkdi,
Bəhrəsini dərmədi.
Mahir öz diplomunu
Gözü ilə görmədi.

Hey yanıb yaxılırdı,
Vətən şəhid verəndə.
Qisas andın içmişdi
O, döyüşə girəndə.

O yaşatdı vətəni,
Axıtdığı qan ilə.
İndi Mahirin adı
Şəhid tək gəlir dilə.

03.06.2020





***Dadaşov Tural Sabir oğlu***

***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ELİN ŞƏHİD BALASI

Bu gözlərdə neçə nakam arzu var,
Gözlər baxır, ürək edir ahu-zar,
Sən gedəndən dünya olub yaman dar
Həsrət yükün ürəklərə yüklənib,
Sınıq qəlblər qəm-kədərlə köklənib.

"Tural" deyib fəryad edir ürəklər,
Hey titrədir könülləri küləklər,
Bizə xəbər verir səndən mələklər
Sorağın cənnətdən gəlir, şəhidim,
Kaş səni bir dəfə görə bilərdim.

Sən yol tutub cənnət əhli olmusan,
Düşmən köksün parçalayıb, yarmısan,
Şəhid olub ürəklərdə qalmısan
Apreldəki savaşın qəhrəmanı,
Adını qəlbində saxlayır hamı.

Sən bu elin cavan solan balası,
Balasına ağı deyər anası,
Ürəklərin şəhid adlı yarası
Sızıldayır illər boyu qanayır,
"Şəhid Tural" deyib, hər kəs ağlayır.

26.04.2020





***Sərxan Oqtay oğlu Bayramov***
***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## ALDIN VƏTƏN QİSASINI

Rahat uyu şəhidim,
Yatdığın məzarında.
Sən vətənə can verdin,
Çünki vətən sevgisi
Dövr edirdi qanında.

Gözlərinə çökmüşdü,
Vətənsizlik duyğusu.
Özü ilə bərabər
Qəlbində böyütmüşdü,
Düşməninə qisası.

Gəldi yetişdi o gün,
Ərənlər vətən üçün –
Dadın bildi ölümün.
Onlar qisasın aldı,
Çəkdirilən hər zülmün.

Sərxanın gözlərində,
Canlandı düşmən dağı.
Nə qədər taqəti var
İstədi azad etsin,
İşğaldan Qarabağı.

Şəhidimin vüqarı,
Dağlara bənzəyirdi.
Azad olan torpaqlar
İllərdi dərdli olan,
Qəlbini bəzəyirdi.

Sərxanın şəhid adı,
Səda saldı cahana.
Ondan bereti qaldı,
İndi oğul qoxusun,
Beretdən alır ana.

12.10.2019





***Bağırzadə Firdovsi Əliş oğlu 2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur .***



## XALQIM MİNNƏTDAR SƏNƏ

Ürəyimin beşiyinə qəm düşüb,
Mən o qəmə həzin laylay deyirəm.
Ağlamaqdan sanki çöhrəm bürüşüb
Oğul – deyib dizlərimə döyürəm.

Mən balamın qoxusundan doymadım,
Ürəyimi şəhid adlı dərd tutdu.
Hər vağzalı sədasına ağladım
Göz yaşımı şəhid dərdi qurutdu.

Firdovsisiz ömrü yaşamaq çətin,
O gedəndən səadətim puç olub.
Unutmuram tək oğlumun surətin
Gənc yaşında oğlum vətənçün solub.

Öz canını fəda edib vətənə,
Vətən üçün şəhid olanlar kimi.
Şəhidim, xalqım minnətdardır sənə,
Dərdin sızladır hər kəsin qəlbini.

13.02.2020



***Bağırov Sərxan Azər oğlu***
***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***

## SƏRXANIM

Oğul, daha həsrətinə dözmürəm,
İllərdi ki, nur üzünü görmürəm,
Sən gedəndən sevinc nədir bilmirəm
Sənsizliklə mən sınandım, Sərxanım,
Həsrətindən yanır mənim bu canım.

Ay dolanır, həftə keçir il olur,
İki gözüm hey boşalır, hey dolur,
Bu həsrətin ürəyimə dağ qoyur
Kaş duyardın fəryadımı, Sərxanım,
Ay mənim vətən uğrunda solanım.

Bilməzdim ayrılıq olar qismətim,
Birdəfəlik gedər oğul nemətim,
Bitməyəcək sənə olan həsrətim
Hər sözümsən, söhbətimsən Sərxanım,
Ürəyimi yandıranım, yaxanım.

11.03.2020





***Mehrəliyev Sarvan Natiq oğlu***
***2016-cı ildə Aprel döyüşlərində qəhrəmancasına şəhid olmuşdur.***



## VƏTƏN EŞQİ

Vətən, sənin adını ucaltdı çox övladın,
Yolunda candan keçib daddı şəhidlik dadın.
Vətən, eşqin uğrunda can verən igidlərin
Unutdurma heç zaman köksünə düşən adın.

Mərd oğullar səsləyib kömək istədiyin an,
Bu qəhrəman düşmənə vermədi bir an aman.
Haray çəkib düşmənin üzərinə yürüdü
Dedi: "İzin verəmərəm yaralı qalsın anam.»

İki qardaş vətənə şərəf andını içdi,
Allah onun birini müqəddəs kimi seçdi.
Aprel döyüşlərinin neçə qəhrəmanıtək
Sarvan sənin yolunda şəhid tək candan keçdi.

17.04.2020



***Cəbrayılov Ömər Məzahir oğlu***
***2016 - cı ildə Aprel döyüşlərində***
***qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİD ÖMƏR

Yaman ağrılı olur şəhid üçün ağlamaq,
Adına ağı deyib, ürəkləri dağlamaq.
Bir ürəyin ən ağır yüküdür bu dünyada
Puç olan arzuları ürəklərdə saxlamaq.

Bu dərdə nalə çəkər cahanın dağı-daşı,
Allahım, yandı daha dərddən bağrımın başı.
Hansı sözlə təsəlli edim daha bilmirəm –
Ömər – deyib sızlayan biçarə bir qardaşı.

Hələ neçə arzuya gedib çatmayan cavan,
Bu zamansız gedişin qəlbləri etdi viran.
Bala dərdli ürəyi bu həsrətə dözməyir
Şəhid balam – söyləyib ağlayar ata-anan.

Ömər,vətən torpağı indi sənintək qoxur,
Yoxluğun ürəklərdə həsrət naxışı toxur.
Anan məzar başında boynunu büküb durub
Gənc solan balasına qəmli ağılar oxur.

24.04.2020







***Tağıyev Rahim Qara oğlu***
***Aprel döyüşlərində ağır yaralanıb***
***10.07.2016 - cı ildə şəhid olub.***

## UNUDULMAYACAQSAN

Bu dünya var olduqca,
Adın da var olacaq.
Şəhidim sevgin hər an
Ürəklərə dolacaq.

Necə ki, sən sevmisən,
Bu vətəni, torpağı,
Candan əziz bilmisən
Ay-ulduzlu bayrağı.

Sən vətən sevgisiylə,
Dünyadan köç etmisən.
Şəhidlər bağçasında
Çiçək olub bitmisən.

Sən torpaq qoxan çiçək,
Heç vaxt solmayacaqsan.
Adın dillər əzbəri –
Daim yaşayacaqsan.

Çünki şəhid olanlar,
Əbədi yaşayırlar.
Rahim, səni sevənlər
Adını yaşadırlar.

10.07.2020





## BOŞ QALDI YERİN

Qəlbimdə yaraya dönüb «yar» sözüm,
İndi bulaq kimi ağlayır gözüm.
Səni itirdiyim həmin o gündən
Zülmət bir gecəyə dönüb gündüzüm.

Daha qəhqəhələr tərk edib məni,
Mənə yoldaş etdin kədəri, qəmi.
Qəlbim min xəncərə tuş gəlir sanki
Soyuq bir məzarda görəndə səni.

Əlimə yaraşdı qərənfil gülü,
Ürəyim çevrilib oldu qan gölü.
Sənin gedişinlə bir anda susdu
Evimin avazı gözəl bülbülü.

Boş qaldı süfrəmin başında yerin,
Qəlbimdəki yaram dəryadan dərin.
Yenə də telimə bir sığal çəkir
Rahim, yuxularda sənin əllərin.

29.11.2019



*Quliyev Rahib Nəriman oğlu*
*10 fevral 2016-cı ildə qəhrəmancasına*
*şəhid olub.*

## RAHİB DEYİB AĞLARAM

Kəm bəxtinə ağlaram,
Ürəyimi dağlaram.
Tək nişanə saxlaram,
Sənli xatirələri,
Ağlar qoydun gözləri.

Viran olub ürəyim,
Yerə dəyib kürəyim.
Şəhid olan mələyim,
Bu həyatdan doymadan,
Niyə köçdün dünyadan?

Arzular yarım qaldı,
Əcəl səni tez aldı,
Araya həsrət saldı
İzsiz oldu yolların,
Daş qucaqlar qolların.





Gəzirəm diyar-diyar,
Dərd verib Pərvərdigar,
Bu yaram hey qanayar
Sızım-sızım sızlaram,
«Rahib» deyib ağlaram.

13.06.2020



*Alıyev Vüsal İlham oğlu*
*2016-cı ildə Aprel döyüşlərində*
*qəhrəmancasına şəhid olmuşdur.*

## SƏNSİZLİK

Şən gedəndən sevənlərin,
Əli üzüldü dünyadan.
Həmin o sənli günlərin
Asıldı çox xəyallardan.

Bu sənsizlik neçə qəlbin,
Çəkdiyi ağır cəzadır.
Vüsal, dözülməzdir dərdin
Qəlbdə sağalmaz yaradır.

Şəhid adına tutunur,
İndi sənin sevənlərin.
Çöhrəsinə hüzün qonur
İsmini eşidənlərin.

İndi vətən sənsiz qalıb,
Ürəklərsə sənsiz deyil.
Adın tarixdə iz salıb
Xalqım sənə "şəhid deyir".

17.05.2020








***2017-ci ildə Xocavənd uğrunda şəhid olan 5 şəhidimiz mayor Abdullayev Aqşin İsmayıl oğlu,baş-leytenant Nəzərov Şahlar Yaşar oğlu, baş-leytenant Haşımlı Tural Əbdül oğlu, baş-çavuş Qədimov Zülfü Rəhim oğlu və Cəfərov Zakir Nazim oğlu.***

## BEŞ İGİD

Beş igid birlikdə bir tarix yazdı,
Canı sipər etdi torpaq yolunda.
Biri digərinin dadına çatdı
Dostu can tapşırdı dostun qolunda.

Torpaq doya-doya durmadan içdi,
Aqşinin, Turalın, Şahların qanın.
Bir an düşünmədi Zülfü və Zakir,
Onlar fəda etdi vətənə canın.

İndi o tarixdən neçə il keçib,
Lakin unudulmaz həmin şanlı gün.
Vətənin, torpağın keşiyin çəkdi
Gözünə dik baxdı onlar ölümün.

24.02.2020





***Haşımlı Tural Əbdül oğlu***

***2017-ci ildə Fevral döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.***



## ÖRNƏK QƏHRƏMAN

Torpaq qoxusunu içinə çəkib,
Torpağın üstünə qan tökdü Tural.
Cənnətdə bir gül də o şəhid əkib
Vətən torpağını o boyadı al.

Köksünü bir sipər etdi vətənə,
O dedi «vətənim yaralanmasın» .
Xocalı dərdiylə alışdı sinə
Dedi: «Xocavəndim işğal olmasın» .

Hər kəs bir yanaydı vətən bir yana,
Onun vətən eşqi ömrə bədəldi.
Vətənçün vücudu döndü al qana
Düşmənin gülləsi bağrını dəldi.

Son dəfə gözünü dikdi səmaya,
Gözündə canlandı bala çöhrəsi.
Tural qovuşmadı körpə balaya
Get-gedə tükəndi onun nəfəsi.

İndi bu igidin ömür yolunu,
Cavanlar özünə bir örnək bilir.
Bu millət unutmaz heç zaman onu,
Şəhidlər bir ölüb, min kəz dirilir.

20.02.2020





***Cəfərov Zakir Nazim oğlu***

***2017-ci ildə Fevral döyüşləri zamanı qəhrəmancasına şəhid olmuşdur.***



## QORXMAZ İNSAN

İlahi, vətən eşqi necə böyük qüvvədir,
Bu eşqin qarşısında başqa bir eşq heç nədir.
Vətən, torpaq uğrunda şəhid olan insanlar
Onlar vətən eşqiylə bizə örnək göstərir.

Ömrün bahar çağında vətən yolu tutanlar,
Vətənə keşik çəkib özlərin unudanlar,
Tarixin yaddaşında əbədi yaşayacaq
Zakir tək vətən üçün gənc yaşında solanlar.

Zakirin ürəyində düşmənə nifrət vardı,
O deyirdi: "Vətənsiz bu dünya mənə dardı."
İllər sonra Xocalı işğal olduğu o gün
Zakir və dörd yoldaşı düşməndən qisas aldı.

Bir an belə qorxmadı düşmənindən bu insan,
Gənc yaşında bu qədər qorxmaz biri olasan.
Allahın vətənimə bəxş etdiyi igiddir
Belə qəhrəmanları itirmək olmur asan.

20.02.2020

## NAKAM ÖMÜRLÜM

Bu həyat yolunun ilk pilləsində,
Ömrünün sonuna çatdın, şəhidim.
Çarpaz bir dağ oldun xalq sinəsində
Dərdini sağalmaz bir dərdim bildim.

Şirin arzuların çevrildi daşa,
Nakam məhəbbətin səninlə getdi.
Yaşasan çatardın 24 yaşa
21 yaşında həyatın bitdi.

Mənim gənc solanım, indi ürəklər,
Hər adın gələndə titrəyib, əsir.
Sənə laylay deyir əsən küləklər
Həmin o küləklər qəlbləri kəsir.

Sən vətən daşına çevrilən gündən,
Qəlblərə həkk olub şəhid tək adın.
Vətən namusunu çəkmisən öndən
Duymusan vətənin ahın, imdadın.

03.05.2020







***Anar Dağıstan oğlu Əsgərli***

***2013-cü ildə şəhid olmuşdur.***

## ŞƏHİDİM ANAR

Soldu bir cavan oğul,
Ömrünün yaz çağında.
Hələ neçə arzusu
Açmadı gül bağında.

Bir ananın ürəyi,
Sakinsiz liman oldu.
Balasının bəxt yolu
Zülmət, qaranlıq oldu.

Adı dillərə dastan,
İgid, şəhidim Anar.
Şəhid olan kəsləri
Ürəklər yaşar sanar.

Qurban olum şəhidim,
Əbədi cənnətinə.
Canı fəda etmisən
Vətənə, millətinə.

Şəhid cənnət sakini,
Peyğəmbərə qonşudur.
Hər gecə şəhidləri
Xanım Zəhra uyudur...

05.08.2019





***Tural Yaşar oğlu Əhlimanlı***
***2015 - ci ildə şəhid olmuşdur.***



## KƏDƏR ÖRPƏKLİ ANA

Bir ana gördüm ki, başında örpək,
Yanaşdım anaya mən ürkək-ürkək.
Hiss etdim qəlbində nəsə dərdi var
Onun dərd-sərini duymuşdu ürək.

Hisslərim çatdırdı məni ünvana,
Dərdini bölüşdüm sarıldım ona.
Oğul xonçaların yeniləyərkən
Ananın ürəyi döndü al qana.

Bu ana qəlbimi yandırıb yaxdı,
Sanki gözlərimdə ildırım çaxdı.
Gizlədim gözümdən axan yaşları,
Mənim göz yaşlarım qəlbimə axdı.

Elə Tural deyir söhbəti, sözü,
Oğlun soruşanda hey dolur gözü.
Şəhid məzarını ev-eşik bilir
Zülmətə qərq olub onun gündüzü.

Ömrümə yazıldı həmin qısa an,
Kaş elə o anda duraydı zaman.
Qəlbimin fəryadı ruhu titrətdi
Duymadı naləmi mənim bu cahan.

18.11.2019





***Tapdıq Əlizaman oğlu Babaşov***
***2015-ci ildə şəhid olmuşdur.***



**ŞƏHADƏTDİR AMALIM**

Mənim qəlbim vətən ilə döyünür,
Cismim isə bu eşq ilə öyünür,
Torpaq dərdi ürəyimin düyünü
Mən istərdim azadlığa yetişim,
Qarabağın taleyini dəyişim.

Bu minvalla ömür etdim həyatda,
Türklüyümü car çəkdim kainatda,
Bir dərd vardı qəlbimdə Vətən adda
O dərdimə dərman tapmaq istədim,
Düşmənimə hər vaxt nifrət bəslədim.

Arzum idi Qarabağa yön alım,
Qanım ilə o torpağa iz salım,
Şəhid kimi mən də yaddaşda qalım
Canı qurban edim Azərbaycana,
Azərbaycan dönməsin qəlbdə qana.

Haqq sözünü söyləyirdi bu Tapdıq,
Haykırırdı sözümdəki azadlıq,
Bir anda ömrümə çökdü qaranlıq
Ömrü biçdi müəmmalı bir ölüm,
Gedişimlə anama verdim zülüm.

Çox sevdiyim al bayrağa büküldüm,
Neçə gözdən göz yaşı tək süzüldüm,
Son arzumla ürəyimdə gömüldüm
Qarabağı azad edə bilmədim,
Düşmən izin Qarabağdan silmədim.

Unutmayın şəhid olan bu kəsi,
Əsgər ikən o verdi son nəfəsi.
Nə zaman çalınsa zəfər nəğməsi
Həmin o gün ruhum dinclik tapacaq,
Şəhidlərin ruhu rahat olacaq.

24.10.2019





## VƏTƏN SEVDALISI

Vətən sevdalısı, xalqın vurğunu,
Mübariz ürəkli vətən övladı.
Vətənə həsr etdi ömür yolunu
Tarixə yazıldı Tapdığın adı.

Dönmədi şərəfli yolundan bir an,
Türk adın özünə səltənət bildi.
Haqqın tərəfində oldu hər zaman
Dilini, dinini sonsuz sevirdi.

Bu eşqin yolunda canından keçdi,
Şəhidlik nuruna boyandı gənckən.
Vətən sevdalısı vətəni seçdi
Oldu torpaq üstə şəhidtək bitən.

Yazdığı sətirlər düşüb dillərə,
Duyarkən ürəklər qövr edib yanır.
Tapdıq adı düşüb çox könüllərə
Hər kəs bu igidi sevgiylə anır.

10.04.2020



***Abdulrəhmanov Coşqun Hüseyn oğlu***

***2008-ci ildə şəhid olmuşdur.***

**ŞƏHİD QARDAŞIM**

Mən səninlə başladım
Şəhid dərdi çəkməyə.
Şəhid adı duyanda
Gözdən qan yaş tökməyə.

Sən mənim ürəyimə,
Sağalmayan dağ oldun.
Ömrünün gənc çağında
Gül tək saralıb soldun.

Cənazənə sarıldı,
Çox sevdiyim bayrağım.
Hər ötən gün böyüyür
Qəlbimdə şəhid dağım.

Sənin dərdin bənzəyir,
Mənim vətən dərdimə.
Hər iki dərd dağ çəkir
Mənim dərdli qəlbimə.





Sənin arzularının,
Qatili ölüm oldu.
Bayraqda gəldi nəşin
Anan telini yoldu.

Gülüşün gözlərimdən,
Getmir Coşqun qardaşım.
Şəhidim, mübarəkdir
Dəyişilməyən yaşın.

24.10.2019



***Miriyev Telman Mirbaba oğlu***

***2016-cı ildə şəhid olmuşdur.***

## AZƏRBAYCAN AŞİQİ

Ürəyimdə yar həsrəti daşıram,
Bu həsrətin oduyla alışıram,
Qara bəxtlə zülmətə qarışıram
Cavan yaşda qismət payım qəm olub,
Mənim yarım cavan yaşında solub.

Vətən eşqi başqa idi Telmanın,
Vətən üçün hazırdı versin canın.
Alov saçan Aprelin döyüş anın
İgidlər tək o da canlı yaşadı,
Bu zəfərdə vardı Telmanın adı.

Qisas hissi gözlərində qaraldı,
O döyüşdə can vermədi can aldı,
Düşmənlərin ürəyinə od saldı
Aldı bir-bir şəhidlərin qisasın,
Dedi «təki Azərbaycan yaşasın».





Vətən eşqi hey qəlbində çağladı,
Son gedişi ürəyimi dağladı,
Zeynəbimiz «ata» deyib ağladı
Oldu körpə yaşda şəhid balası,
Yıxıldı bir anda xəyal dünyası.

İndi bizə yuxularda qonaqdı,
Onun dərdi sönməyən bir ocaqdır,
Onsuz ötən hər günüm ağ varaqdır
Ömrümün kitabı daha yazılmır,
Şəhid Telman bir an da unudulmur.

06.11.2019



**Rövşən Ramiz oğlu Əzizov**

**2008-ci ildə qəhrəmancasına şəhid olmuşdur.**

## QƏLBDƏ YAŞAR ŞƏHİDİM

Bir yarımçıq həyatın,
Arzuları yas tutub.
O gedəndən çoxları
Sevincini unudub.

Dağlanır ana qəlbi,
Oğlu məzarda yatır.
Bir şəhid oğul dərdi
Qəlbinə ox tək batır.

Hələ uşaq çağında,
İtirmişdi atasın.
Qəm-kədərin bağında
Hey görürdü anasın.

Bilməzdi ki, öz canın,
Şəhid kimi verəcək.
Anası ağ saçların
Ağlayaraq hörəcək.





Dörd qardaş beşincini,
Axtaracaq hər zaman.
Unudub sevincini
Dərd çəkəcəklər hər an.

Hələ nazlı nigarı,
Yar deyib ağlayacaq.
Onun sevdiyi yarı
Qaralar bağlayacaq.

Şəhid Rövşənin adı,
Çox qəlbə dağ olacaq.
Dadıb ayrılıq dadı
Gözlər yaşla dolacaq.

Qanını bu torpağa,
Axıdan igid oğul.
Dönmüsən uca dağa
Sənlə duyuruq qürur.

14.10.2017



**Bağırov Rəşid Əli oğlu**
**1992-ci ildə I Qarabağ müharibəsində Ağdərə uğrunda mübarizə apararkən qəhrəmancasına şəhid olmuşdur.**

## VƏTƏN OĞLU

"Vətən" deyə haray etdi bir ərən,
Sədasından dağ da, daş da oynadı.
Düşmənləri vəlvələyə düşürən
Bu qəhrəman yaşamaqdan doymadı.

Külli bəşər duysun onun ismini,
Rəşid adın həkk etsinlər yaddaşa.
Vətən torpağına dönən cismini
Xatırlayın, baxıb bu soyuq daşa.

Vətən eşqin bildi namus və qeyrət,
Eşq yolunda fəda etdi əziz can.
Bəsləyirdi düşmənə kin - küdurət
Vətən oğlu Ağdərədə tökdü qan.

Şəhadətə ucalan bu insanı,
Nə vətənim, nə də xalqım unutmaz.
Bizlər alaq düşməndən intiqamı
Yoxsa qəlbi şəhid sözü ovutmaz.

23.05.2020





***Baxşəliyev Oktay Baləddin oğlu***
***2000-ci ildə şəhid olub***



## YARIMÇIQ ÖMÜR SƏHİFƏSİ

Gör neçə taleyin rəngi qaralıb,
Gedənin dönməyən yolun qar alıb,
Qəhrəman oğullar tarixdə qalıb
O tarix silinməz ötsə əsirlər,
Tarixə həkk olar qanla şəhidlər.

Vətənin canına can verənlərin,
Vətəni başına tac bilənlərin,
Şəhadət zirvəsin hakk edənlərin
Cismi torpaq olub vətənə dönüb,
Ruhusa cənnətdə hər an görünüb.

Vətənin uğrunda can verən Oktay,
Vətənçün can verən şəhidlərə tay,
Köksündə ürəyi salırdı haray
Vətəni ağ günlü görməkdi dərdi,
Bu dərdlə dolmuşdu köksündə qəlbi.

O, hər vaxt hər kəsə köməyə yetdi,
Neçə gənc əsgərə yardımlar etdi.
Ömrünün yolları hərbidə bitdi
Büründü bayrağa cansız bədəni,
O azad görmədi ana vətəni.

Şəhid tək göylərə ruhu ucaldı,
Adı tarix olub tarixdə qaldı.
Hər insan ömrünə bir nəzər saldı,
Oktayın yarımçıq ömür səhifəsi,
Qəmə düçar edib indi hər kəsi.

12.06.2020





***İmanov Allahverdi Xudaverdi oğlu.***

***1994-cü ildə I Qarabağ müharibəsində Tərtər rayonunda qəhrəmancasına şəhid olmuşdur.***



## ŞƏHİD ALLAHVERDİ

Vətən qeyrətini çəkən oğullar,
Qorxunu özünə yaxın buraxmaz.
Vətən sevgisi tək ali duyğular
Olan ürəklərdə başqa eşq olmaz.

Vətənə ürəkdən bağlanan biri,
Əyninə şəhidlik libasın geyər.
Məhv edər hər zaman naqis düşməni
Ana torpağını səltənət bilər.

Bax belə igidlər ayaqda tutar,
Əbədi var olan Azərbaycanı.
Qanını torpağa su kimi qatar
İgid əziz tutmaz vətəndən canı.

Vətənin ürəyi qanayan zaman,
Döyüşdü mərdanə Allahverdidə.
Ağdam, Ağdərəyə düşmən girən an
İstədi düşmənin bağrını didə.

Düşmənlər Tərtərə tamah salanda,
Sinəsin torpağa sipər elədi.
Şəhid tək göylərə o ucalanda
Təki Azərbaycan var olsun – dedi.

Bax budur igidlik, budur şücaət,
Belə oğullarla vətən basılmaz.
Bir əsgər şəhidlik etməzsə niyyət,
Onun məzarında bayraq sancılmaz.

01.03.2020





***İbrahimov Vüqar İsfəndiyar oğlu***

***1994-cü ildə I Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olmuşdur.***



## VÜQARLI ŞƏHİDİM

Şəmkirdən bir işıq düşdü vətənə,
Heyranam vətənə canın verənə.
Bir igid ömrünün izinə düşdüm
O tutdu vətəni tən şərəfinə.

Dözməyib vətənin ah-nələsinə,
Səs verib vətənin haray səsinə.
Düşmənin yurduma göz dikdiyi vaxt
Vüqar boy göstərdi igidcəsinə.

İz qoydu Ağdamda, həm Kəlbəcərdə,
Adı xatırlanır onun hər yerdə.
O, vətən sevgisin üstün bilirdi
Salırdı düşməni hər zaman dərdə.

Döyüş zamanında öndə durandı,
Düşmən əsgərini qəlbdən vurandı.
Qarabağ uğrunda can fəda etdi
Yazıldı cənnətdə ömrünün ardı.

İndi xatırlanır bu mərd, qəhrəman,
Şəhid ölməz adın olarsa anan.
Vüqar tək vüqarlı mərdlər çox olub,
Vətənin halına ürəkdən yanan.

22.05.2020





***İbrahimov Araz İsfəndiyar oğlu***

***1994-cü ildə I Qarabağ müharibəsi zamanı qəhrəmancasına şəhid olmuşdur.***



## ŞƏHİD ARAZ

Bu vətənin hər daşı,
Bir igidin adıdır.
İllərdir ki, bir acı
Qəlbimizi yandırır.

Neçə-neçə igidin,
Can verdiyi Qarabağ.
Çox qəhrəman oğula
Məzar olub bu torpaq.

Bu torpaq hiss eləyib,
Neçə igid gücünü.
Araz da düşmənlərdən
Alıb qisas, öcünü.

Qarabağın bəxtinin,
Qara yazılan çağı.
Bu qəhrəman çox çəkib
Düşmən köksünə dağı.

Hər döyüşün bir izin,
Daşıyıb simasında.
Bu qəhrəman yer alıb
Şəhidlər dünyasında.

21.05.2020





*Abbasov Akif Elşən oğlu*

*2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.*



## DOYMADIM ANAMDAN

Ana, tellərinə bir sığal çəkdim,
Telinin qoxusu hopdu əlimə.
Sonuncu nəfəsi verəndə belə
Ana, sənin adın gəldi dilimə.

Bir tabut içində balan gələcək,
Son dəfə oğlunu səsləyəcəksən.
Ay ana, əbədi mən getsəm belə
Yolumu hər zaman gözləyəcəksən.

Bilirəm doymadın məndən, ay ana,
Mən sənin qoxundan doymadığım tək.
Bizim bəxtimizə ayrılıq düşdü
Ananı baladan ayırdı fələk.

21.02.2020

## TOYSUZ GEDƏN ŞƏHİDİM

Sən olmayan dünyanın,
Baharı qışa dönüb.
Getdiyin gün ananın
Gözünün nuru sönüb.

Dərdini çəkən ürək,
İndi para-paradır.
Dərd yüklənən hər kürək
Cismin kimi yaradır.

Akif, adın dillərin,
Əzbərinə çevrilib.
Səni bütün millətin
Özünə bala bilib.

Şəhidinin dərdinə,
El yanır ana kimi.
Yad deyilsən heç kimə
Tutdun elin qəlbini.

Cənnətdəki ilk yaşın,
Mübarəkdir şəhidim.
Yenə axdı göz yaşım
Sağalmaz şəhid dərdim.





Dövr edib keçən zaman,
Unutdurmaz adını.
Vətənə qurban olan
Dadır cənnət dadını.

Cənnətdə yarını tap,
Toysuz gedən şəhidim.
Əbədiyyətdə rahat
Olsun yaralı qəlbin.

26.03.2020



***Paşazadə Orxan Nazim oğlu***

***2020-ci ildə qəhrəmancasına şəhid olmuşdur.***

## ŞƏHİDİN VAR EY VƏTƏN

Yənə də şəhid qanı,
Çiləndi torpağıma.
Onun gənc solan canı
Büründü bayrağıma.

Ağlar qaldı bir ana,
Ah edir yana-yana.
Balası qurban gedib
Dərdli Azərbaycana.

Yenə də deyəcəyik –
Şəhidlər heç vaxt ölməz.
Bizlər parçalansaqda,
Vətənimiz bölünməz.

Sevinmə namərd düşmən,
Yaşar şəhidtək ölən.
Vətənə qurban gedər
Vətən qeyrətin çəkən.

06.03.2020





***Turanə Kamandar qızı Həsənli***

***2016-cı ildə Aprel döyüşləri zamanı ermənilərin açdığı atəş nəticəsində əbədiyyətə köçmüşdür.***



## ON ALTINCI BAHAR

Bu həyatda nə yaşadın?
Ölüm sənə meyil saldı.
Düşmənin atdığı mərmi
Səni bu cahandan aldı.

Həyat üçün vuran qəlbin,
Parça-parça oldu o an.
Torpağın cadarın örtdü
Ürəyindən axan al qan.

On beş bahar sən yaşadın,
On altıda bitdi ömür.
Səndən qalan xatirələr,
Zəlil qalıb hey sürünür.

Turanə, sən həkim olub,
Şəfa vermək istəyirdin.
Al qanına bələnəndə
Sən də həkim gözləyirdin.

Yetişmədi sənə loğman,
Can tapşırdın torpaq üstə.
Şəhidlərin sırasında
Allahdan yerini istə.

O səni qonşu eləsin,
Müqəddəs sayılanlara.
Bu dünyada gözün yumub
Cənnətdə oyananlara.

19.05.2019







***Zəhra Elnur qızı Quliyeva***

***2017-ci ildə ermənilərin açdığı atəş nəticəsində əbədiyyətə köçmüşdür.***

## ZƏHRA

Nə günahım vardı mənim?
Həyatı məndən aldılar.
Qana büründü bədənim,
Mələk qatili oldular.

Soldu mənim arzularım,
Bu qaranlıq məzarımda.
Tək qaldı oyuncaqlarım,
Buza döndü yatağım da.

Hələ ilk addım atırdım,
Qanım düşən bu torpağa.
Evimə sevinc qatırdım
İndi çevrildim bir dağa.

Şərəfsiz erməni qıydı,
Mənim balaca canıma.
Xocalıda dəri soydu
Məni bələdi qanıma.

Gör Allahım, bu vəhşəti,
Cəzaların özün yetir.
erməni adlı milləti
Bütün kainatdan itir.

05.07.2017





***Rəşad Saləddin oğlu Atakişiyev***



***2019-cu ildə hərbi təlim zamanı şəhid olmuşdur.***

## GÖYLƏR ŞAHİNİ

Ey göylər şahini, vətən övladı,
Qazandın şərəflə şəhidlik adı,
Gedişin sarsıtdı doğmanı, yadı
Hər kəs dua etdi dönüşün üçün,
Bu ordu görmüşdü qolunun gücün.

Ucaldın ucalan göyün üzünə,
Çıxmadın gecənin sən gündüzünə,
Sən bir söz vermişdin özün özünə -
«Vətən səmasından enməyəcəyəm,
Canı vətəndən çox sevməyəcəyəm.»

Vətən səmasında uçdun qartal tək,
Vətənlə döyündü sinəndə ürək,
Bir anda fırtına qopardı külək,
Çaxıldın göylərdən sən dənizlərə,
Sükutun dərd oldu Rəşad, bizlərə.

Günlərlə bir xəbər çıxmadı səndən,
Hər kəs libas taxdı əyninə qəmdən.
Təkcə ümid etmək gəlirdi əldən
O ümid puç olub dənizdə itdi,
Bir ərən həyatı səmada bitdi.

22.08.2019







***Hacıyev Qoşqar Zahid oğlu***
***2015-ci ilin sentyabrında yaralanmış,***
***2020-ci ildə şəhid olmuşdur.***

## QAZİMİZ ŞƏHİD OLDU

Şəhid ruhu ucaldı,
Allahın dərgahına.
Qazi Qoşqar çıxmadı
Bu günün sabahına.

İllərdi bu dünyada,
Acısı boy-boy oldu.
Gözümüzün önündə
O yavaş-yavaş soldu.

«Canlı şəhid» söylədik,
Biz Qoşqarın adına,
Ən dar vaxtda yetişdi
Vətənin imdadına.

Bu gün qazi ucaldı,
Şəhadət zirvəsinə.
Hər kəs layiq görülmür
Ölümün beləsinə.

İndi cənnət sakini,
Şəhidlərə qovuşub.
Neçə şəhid Qoşqardan
Qarabağı soruşub.

Kaş azadlıq müjdəsin,
Sağlığında duyardı.
Onun yanan ürəyi
Bir azca soyuyardı.

İndi neçə ürəkdə,
Qoşqarın adı qalıb.
O insan qəhrəman tək
Yaddaşlarda iz salıb.

10.02.2020





***Əliyev Əmrah Namiq oğlu***

***2020-ci ildə şəhid olmuşdur.***



## ŞƏHİD DƏRDİ

Mən şəhid deyəndə qəlbim sızlayar,
Tək gözüm deyil ki, ruhum ağlayar,
Bu dərd ürəyimi hər an dağlayar
Şəhid dağı dəyib mənim qəlbimə,
Mən dözə bilmirəm şəhid dərdinə.

Sızlayır ürəyim bir kaman kimi,
Qırılıb elə bil kamanın simi,
Bir nəğmə zəbt edib mənim qəlbimi
Nəğmənin sözləri həsrət, intizar,
Ünvana çatmadan ölən arzular.

Açılan sabahla dərdim oyanır,
Qəlbimdə elə bil alov qalanır,
Yanır mənim qəlbim, bu dərdlə yanır
Dərdimin adı var «ŞƏHİD DƏRDİ»dir,
Qəlbim şəhidlərin məzar yeridir.

27.03.2020

## ŞƏHİDLƏR

Ölməzdir vətənçün şəhid olanlar.
Şəhidlər şəhadət qazanan kəsdir.
Vətən torpağının üstə solanlar,
Torpağa can verən isti nəfəsdir.

Şəhid qanlarının düşdüyü torpaq,
Sanki səcdəgahdır, ziyarətgahdır.
Şəhidin adını bil ki, unutmaq,
Dünyada işlənən böyük günahdır.

Unutma! Qoyma ki, unudulsunlar,
Torpağı qanıyla yuyan şəhidlər.
Bu xalq şəhidlərlə qürur duysunlar,
Tarixdə iz qoyub həmin igidlər.

04.04.2019





## ŞƏHİD ƏBƏDİYYƏTƏ, QAZİ BƏŞƏRİYYƏTƏ

«Torpağı vətən edən uğrunda axan qandır»,
Şəhid cənnət sakini, qaziysə yarımcandır.

Şəhid yolu uzanıb çatar əbədiyyətə,
Qazi qopmaz həyatdan dönər bəşəriyyətə.

Hər iki qəhrəmanın torpağa düşər qanı,
Şəhid torpaq qoynunda, qazinin yanar canı.

«Kaş ki, şəhid olardım» deyən qazi oğullar,
Bilin, bu vətən, bu xalq sizlə qürur duyurlar.

Siz bizə şəhidlərin canlı sübutlarısız,
Bu xalqın, bu millətin qürur, iftixarısız.

Haqqı halal eləyin haqqı ödənməz kəslər,
Bu haqq ödənə bilməz verilsə son nəfəslər.

22.07.2019

## VƏTƏNƏ CAN VERƏNLƏR

***(İdlib şəhidlərinə)***

Al bayrağın işığı,
Nurlandırdı cahanı.
Neçə igid bir oldu
Verdi vətənçün canı.

Türk xalqının dörd yanı,
«Şəhid» deyib ağladı.
Neçə yarımçıq ömür
Ürəkləri dağladı.

Qan gölünə çevrildi,
Viran edildi İdlib.
Neçə igid vətənçün
Canını qurban edib.

Sinələr sipər olub,
Haqqın gerçək üzünə.
Dünya məəttəl qalıb
Türklərdəki dözümə.

Türk səs verər hər zaman,
Haqq-ədalət səsinə.
İlahi, möhtac etmə
Türkləri özgəsinə.





İllərdi ki, savaşır,
Xainlərlə Türkiyə.
Qəhrəman türk ordusu
Əl atmırlar hiyləyə.

Türkün kitabında yox,
Kürəkdən zərbə vurmaq.
Özü böyük qürurdur
Türk doğulub, türk olmaq.

28.02.2020



***Yarmətov Ruslan Hacımərdan oğlu. I Qarabağ müharibəsində Kəlbəcər döyüşlərində qəhrəmancasına şəhid olub.***

## ADINI YAŞADACAM

Adının nuru düşür,
Neçə könül evinə.
Mənim sevgim bənzəyir
Sənin vətən sevginə.

«Daş evinə» müqəddəs,
Vətən kimi baxıram.
Sənin məzar daşını
Öz köksümə sıxıram.

Bir ana balasını,
Köksünə sıxdığı tək.
Şəhidim, səni duyur
Sinəmdə çarpan ürək.





Cənnətindən ucalan,
Müqəddəs avazınla,
Sanki ruhunu gördüm
Bərq vuran pərvazınla.

Mənim qəlbimə düşdü,
Şəhidim, sənin adın.
Adını yaşadacaq
Ruslan, bil ki, bu qadın.

16.08.2020



***Mamedov Mürşüd Ağa oğlu 1994-cü ildə Kəlbəcər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub.***

## KƏLBƏCƏRİN ƏRƏNİ

Vətən adlı bir qalaya,
Keşik çəkən məğrur oğul.
Şəhadət adlı saraya
Çatdın sənlə duyduq qürur.

Bu vətənin dar günündə,
Sipər etdin əziz canı.
Sən var oldun ölümünlə
Axıtdın vətənçün qanı.

Vətənin dörd tərəfinə,
Yağılar göz dikdiyi vaxt.
Mürşüd, çatdın hədəfinə
Şəhid tək qurdun qəlbdə taxt.

Kəlbəcərin Babalılar,
Təkəqaya, Bozdu kəndin,
Mərd oğullarla birlikdə
Düşmənlərdən xilas etdin.





On doqquz düşmən əsgərin,
Sərdin Kəlbəcər düzünə.
Həmin qanlı son döyüşün
Düşdü tarixin özünə.

Səndən sonra neçə canlar,
Qurban gedib bu vətənə.
Yenilməz, mərd qəhrəmanlar
Düşmənlərə gəlib sinə.

19.06.2020



***Mirzəyev İlqar Anzor oğlu***
***2020-ci ildə İyul döyüşlərində qəhrəmancasına şəhid olub***

## VƏTƏNİN ÖZÜ

Qürurun boy atır bütün cahanda,
Sən vətən daşırdın dövr edən qanda,
Vətənə can verdin elə bir anda
Coşdu insanların damarda qanı,
Hər kəs qurban dedi sənin tək canı.

Məğrurluq töküldü göyün üzündən,
Çoxu səni tapdı Vətən sözündən,
Dönmədin bir an da doğru, düzündən
Şərəflə ömrünü sən vurdun başa,
Vətən torpağında çevrildin daşa.

Ömründə iz saldı Aprel döyüşü,
Torpağım o günlər gördü Günəşi.
Vətənlə döyünən qəlbin atəşi
İllərlə isitdi daşı, torpağı,
Yayıldı cahana zəfər sorağı.





Neçə mərd ürəkli ərənlər kimi,
Vətən eşqi tutdu İlqar, qəlbini.
Vətənin uzana qalan əlini
Bərk sıxdın, sən onu darda qoymadın,
Polkovnik, tarixə həkk oldu adın.

22.07.2020



***Mustafazadə Elçin Arif oğlu 2020-ci ildə İyul döyüşlərində qəhrəmancasına şəhid olub.***

## CƏNNƏT SAKİNİ

Necə gözəl baxırdın,
Bu dünyaya gözünlə.
Vətəni xatırlatdın
Söhbətinlə, sözünlə.

Elə bil hiss etmişdin,
Şəhid olacağını.
Şəhadətə ucalıb
Qəlbə dolacağını.

Tutduğun arzuların,
Əlini tez buraxdın.
Elçin, gedişin ilə
Qəlbi yandırıb, yaxdın.

Dünyanın kəndarından,
Qıyqacı baxdın getdin.
Şəhadətə ucalıb
Cənnəti məskən seçdin.

14.07.2020





***Zeynallı İlqar Ayaz oğlu 2020-ci ildə İyul döyüşlərində qəhrəmancasına şəhid olub.***



## XINAN QANLA QARIŞDI

Qanınla tarix yazdın,
Səhifələnən vətənə.
Bir damla düşüb qaldı
Qanından biletinə.

O bir damla düşən qan,
Qəlbi viran elədi.
Bu zamansız gedişin
Başıma od ələdi.

Dolu-dolu baxırdın,
Sanki bu boş dünyaya.
Xəyalda boylanırdın
Sənçün çalınan toya.

Xınası qanı ilə-
Qarışan şəhid İlqar.
Adın gəldikcə dilə
Qəlbi yandırıb-yaxar.

Gözündəki məsumluq,
Allahın əsəriydi.
Yaşadın bircə damla
Göylərin mələyiydin.

Qanad çalıb ucaldın,
Şəhadət zirvəsinə.
Əbədi qəlbdə qaldın
Döndün eşq nəğməsinə.

06.08.2020





## ŞƏHİD ANASI

Yenə göz yaşların torpağa düşüb,
Torpağın köksünə dağ çəkdin, ana.
Bəxtin kədər ilə qəmlə kəsişib
Oğulsuz qalmısan sən yana-yana.

Qəlbinin içində közərən alov,
Cismini qovurub çat-çat eləyib.
Həsrət sevincini götürüb girov
Qəlbini bu həsrət qana bələyib.

Cahana sığmayan şəhidin dərdin,
Necə sığdırırsan qəlbinə ana?
Bilirəm Günəşə üz çevirmisən
Daha şəfəq saçmır Günəş dünyana.

Ruhundan ucalan «oğul» kəlməsi,
Ucalıb - ucalıb göylərə çatır.
Cənnətdə uyuyan şəhid balanı
Şəhid anasının səsi oyadır.

Ah, ana, bilirəm çəkdiyin dərdi,
Çünki qəlbin kimi qəlbim yaradır.
Bircə təsəlim var bu dərd önündə,
Xalq, vətən şəhidi daim yaşayır.

06.08.2020

## TORPAQDA ŞƏHİD QAN QATIB

Var havada qan qoxusu,
Qəlbdə intiqam duyğusu,
Yenə bir şəhid yuxusu
Göz yaşlarımla bölünür –
Gözümə şəhid görünür.

Nə yatmışam, nə oyağam,
Deyirəm, mən niyə sağam?
Öz sinəmdə özüm dağam
Şəhidim var yaxılıram,
Şimşək kimi çaxılıram.

Qəlbimə kin toxum atıb,
Düşmən torpağımda yatıb,
Torpağa şəhid qan qatıb
O qanla qarışan torpaq,
Qəbul etməz yad bir ayaq.

Sındıraq düşmən ayağın,
Ucaldaq vətən bayrağın,
Həfiflədək ürək dağın
Təsəlli olsun qələbə,
Buna ümid var hələ də.

02.04.2018





## BOYNU BÜKÜK QƏRƏNFİL

Ləçəkləri qəm qoxur,
Dərd əlində vurnuxur.
Ürəyə kədər toxur
Boynu bükük qərənfil.

Əllərdə dəstə-dəstə,
Gedir xiyaban üstə.
Dərd oyadır hər kəstə
Boynu bükük qərənfil.

Dili yoxdur danışa,
Dərdini sala başa.
Yoldaşdır mərmər daşa
Boynu bükük qərənfil.

Neçə cavan gənc solur,
Analar telin yolur.
Onlara yoldaş olur
Boynu bükük qərənfil.

Adı şəhid çiçəyi,
Qan rəngidir ləçəyi.
Dağlayır hər ürəyi
Boynu bükük qərənfil.

19.01.2018

## ŞƏHİDİM VAR

Sızlar qəlbim –
şəhidim var,
Tutub köksümü qəm, qübar.
Vətən dərdə yaman yanır,
Ana qəlbi yaman sızlar,
Görən necə dözür?
Balasının yoxluğuna?
Bu vətən göz yaşı tökür –
şəhidinin çoxluğuna.
Bu torpaq neçə illərdir-
Şəhid qanıyla sulanır.
Neçə çiçəkli arzular,
Yıxılır, başa talanır.
Doyub artıq dilsiz torpaq,
Axan şəhid qanlarına.
Torpaq özü fəryad edir,
Dəfn olan cavanlarına.
Dili yoxdur bu torpağın,
Fəryadını haray çəkə.
Gözü yoxdur bu torpağın,
Ağlayıb göz yaşı tökə.
Hər gün gedən canlar kimi,
Bu torpaq da hər gün ölər.
Nə vaxt zəfər qazanılsa,
Vətən, torpaq cana gələr.

06.09.2019





## YANDIRDIN QƏLBİMİ ŞƏHİD ATASI

Göz yaşın çiləndi könül bağımın,
Şəhid məzarına, şəhid atası.
Bilirəm qanadı bu gün yenidən
Qəlbində yer alan şəhid yarası.

O an çarəsizlik qəlbimi yaxdı,
Bu dərdə təsəlli tapa bilmədim.
Göz yaşım sel oldu, durmadan axdı
Gözündən damlayan yaşı silmədim.

Cəsarət etmədim o göz yaşını,
Titrəyən əlimlə çöhrəndən siləm.
Susmaram bu dərdə, şəhid atası
Sizin dərdinizi söyləyən diləm.

İlahi, nə boyda acı daşıyır,
Bir bəndə köksünə sığınan ürək.
Atalar belini bükən yağının
Köksündən ürəyin sökək biz gərək.

16.12.2019

## SAĞALMAZ ŞƏHİD YARAM

Duyğular gözümdən sel olub axır,
Gözüm şəhidimə həsrətlə baxır,
Məzardan gözümə dikilən gözlər
Qəlbimi sızladır, yandırır yaxır.

Hər şəhid məzarı gördüyümdə mən,
Gözümdə rəngini dəyişir aləm.
Həyatda hər zaman arzu etmişəm
Kaş, şəhid yolunda dünyadan köçəm.

Məni valeh edir o müqəddəs ad,
Olmur heç bir şəhid mənə özgə, yad.
Vətənçün, torpaqçün canından keçən
Bütün şəhidlərçün edirəm fəryad.

Şəhid məzarına toxunduğum an,
Deyirəm kaş dura dövr edən zaman.
Mənim şəhid adlı ürək yaram var,
Sağalmaz heç zaman həmin o yaram.

15.08.2019





## ŞƏHİD QOXAN ANALAR

Kirpiyindən asılıb,
Oğul adlı həsrəti.
Sevinc küncə qısılıb
Kədər olub qisməti.

Nakam bala dərdi var,
Hər birinin qəlbində.
Gəlmir onlarçün bahar
Qalıblar qış fəslində.

Qəmli bülbül tək oxur,
Bu analar laylalar.
Bir az da şəhid qoxur
Cənnət qoxan analar.

Qəlbində nisgili var,
Dilində oğul adı.
Analar çəkir qübar,
Zəhərdi şirin dadı.

Bala dağı dəyən qəlb,
Sevincə qapı bağlar.
Çarəsizdir bax bu dərd
Çəkənlər daim ağlar.

Gecənin zülməti tək,
Bəxti qara analar.
Ömrünün gənc yaşında
Həsrət çəkərlər onalar.

Bir də dərdli kəslərin,
Məğrur bir duruşu var.
Eşidərkən səslərin,
Düşmən bağrı od tutar.

01.11.2019





## HƏSRƏT ÇƏKƏN QIZCIĞAZ

Bir qızcığaz sığınıb,
Atalı xəyallara.
Qolu, qanadı sınıq
Hey boylanar yollara.

Körpəcə ürəyində,
Ata boyda dərdi var.
Suyunda, çörəyində
Udar həsrət, intizar.

Ürəyimə dağ çəkdi,
Bir çarəsiz hıçqırıq.
Dünya başıma çökdü
Dünyam oldu qaranlıq.

21.10.2019

## SƏNSİZLİK YAĞIR

Bir zaman səninlə gəzdiyim yerlər,
İndi tənha qəlbə yoldaşlıq edir.
Məni sənsizliyə tərk edən gündən
Ötən saniyələr boşuna gedir.

Sevincin şahidi olan hər məkan,
Axan göz yaşıma qərq olub indi.
Səninlə əl-ələ gəzdiyim yerlər
Məni tənha görüb dil açıb dindi.

Elə bil hər yerdən sənsizlik yağır.
Üst-başım həm həsrət, həm kədər qoxur.
Məni o əbədi dünyana çağır
Ürəyim səninçün yaman darıxır.

19.11.2019





## BAYRAĞA BÜKÜLƏN

Gözlərindən axan yaşın çilənir,
Qəlb evimin hər küncünə ay ana.
Elə bil başıma odlar ələnir
Qəlbim batır qəlbin kimi al qana.

"Oğul" deyib həzin-həzin səs ilə,
Öz içindən alışırsan, yanırsan.
Gözlərindən qəm düşür gilə-gilə
Oğulsuz bu dünya heçdir sanırsan.

Bu dünyanın həsrət adlı nəğməsi,
Kimsənin qəlbinə həmdəm olmasın.
Allahım, nə olar əsgər anası,
Bayrağa bükülən oğul almasın.

Bir şəhidin çiyinlərdə getməsi,
Min arzunun nakam ömrü deməkdir.
Anaların ağı deyib ötməsi,
Ana üçün hər yeni gün ölməkdir.

09.12.2019

## ŞƏHİD BALASI

Bir "ata" deyişi var,
Qəlbə çarpaz dağ çəkir.
Şəhid olan atanın
Balası qan yaş tökür.

Hələ anlamır nədir,
Şəhidliyin mənası.
Bir anda zülmət olub
Bu körpənin dünyası.

Öz gözündən damlayan,
Göz yaşını qurudur.
Dünyanın ən çarəsiz
İzlənən anı budur.

Yox məlhəmi bu dərdin,
Ömür boyu sızlayar.
Şəhidlərin balası,
Hər yaşında ağlayar.

20.01.2020





## ÜMİDİ SOLAN GƏLİN

Əli xınalı gəlin,
Nə tez büküldü belin.
Yar deyə səsləməkdən
Yandı ağzında dilin.

Ucaldı ahın göyə,
Qaldın «yar» deyə-deyə.
Gənc yaşında büründün
Sən bir qara örpəyə.

Bir şəhid yarı oldun,
Yağan bulud tək doldun.
Çovğun vurmuş gül kimi
Sən günü-gündən soldun.

Xınan əldən getməmiş,
Ümidin bar verməmiş,
Tənhalıq oldu payın
Yarla ağ gün görməmiş.

26.12.2019

## APREL ZƏFƏRİ

Çox canların bahasına,
Qazanıldı həmin zəfər.
Mərd ürəkli cəngavərlər
Göstərdilər böyük hünər.

Qan boyandı vətənimin,
Dərəsi də, təpəsi də.
Gecənin sükütun pozdu
Tank səsi, güllə səsi də.

Tək susqun gecənin deyil,
Əsrin sükutu pozuldu.
Hiylə quran erməniyə
Səngərdə məzar qazıldı.

Həmin o gün şahid oldu,
Susqun dünya bir zəfərə,
Cahan da həsəd apardı
Göstərilən bu hünərə.

O gün sanki ərşə durdu,
Xocalının haray səsi.
Dillərin əzbəri oldu
«Qarabağın şikəstəsi».





Bir ölüb min dirildilər,
Vətən üçün can verənlər.
Böyük hünər göstərdilər,
Vətəni namus bilənlər.

Tək təsəlli vətən oldu,
Həmin yanan ürəklərə.
Şəhidlər müjdə apardı,
Peyğəmbərə, mələklərə.

Açıldı cənnət qapısı,
Gələn şəhid karvanına.
Cənnət özü məlhəm oldu,
Şəhidin yaralarına.

02.04.2020

## ŞƏHİD DEYİB AĞLARAM

Yaz günündə haray çəkib göy üzü,
Ağlar qalıb tükənib göyün sözü.
Dörd il öncə al qana boyanmışdı
Vətənimin çəməni, çölü, düzü.

O günlərin xatirəsi qəm verir,
Şəhid dərdin çəkənlər bunu bilir.
Daxilimdə min yerə bölünmüşəm
Bu dərd mənim ürəyimi göynədir.

Hər şəhidin məzarında mən varam,
İllər ötər ancaq sağalmaz yaram.
Bu gün dolub boşalan göy üzü tək
«Şəhid» deyib həzin - həzin ağlaram.

04.04.2020





## DƏRD BÖYÜDƏN KÖRPƏLƏR

Ata, sən getdiyin gün,
Mən böyüdüm kədərdən.
Sevincimi itirdim
Hey boğuldum qəhərdən.

Hər kəsin gözlərindən,
Sənsizlik tökülürdü.
Mənim isə kürəyim
Atasız bükülürdü.

Bilirdim şəhid olub,
Ölməzlik qazanmısan.
Bəlkə son nəfəsində
Mənimçün ağlamısan?!

İndi mənim təsəllim,
Bir vətəndir bir adın.
Ata, daddım uşaq kən
Atasızlığın dadın.

Hər şəhid balası tək,
Dedim «vətən sağ olsun».
Ancaq ürəyim deyir
«Kaş ki, atam sağ olsun»...

08.04.2020

## ƏLACSIZ ŞƏHİD DƏRDİM

Yenə şəhid dərdinə
Ağlayır iki gözüm.
Allah,cahanda böyük,
Bu dərdə necə dözüm?

«Şəhidin var deyəndə»,
Qəlbimə od vurulur.
Elə bil sümüklərim
Eyni anda qırılır.

Ürəyimin naləsin,
Sən duyursan Allahım.
Vətən şəhid verən gün
Açılmayır sabahım.

Mən dözərəm nə qədər,
Cismim çəksə də acı.
Təkcə şəhid dərdimin
Yox çarəsi, əlacı.

22.04.2020





## AĞLAR QALAN ANALAR

Bala adlı dərdin dərmanı yoxdur,
Bu yara ürəyi qanadan oxdur,
Balasın ağlayan analar çoxdur
Həsrətli qəlblərə qurbanam özüm,
Sizinlə bərabər ağlayır gözüm.

Bu kədərin əllərində əsirəm,
Talan olan Laçın kimi yesirəm,
Mən həyatın lap özündən küsürəm
Necə qıyır həyat cavan balaya?
Bala dönür sağalmayan yaraya.

Anaların dərdi cahandan böyük,
Çiyinlərdə daşıyırlar ağır yük,
Allah, özün ürəklərdən qəmi sök
Heç bir ana balasın ağlamasın,
Bu qəm-kədər qəlbimi dağlamasın.

14.05.2020

## ŞƏHİD EŞQİ

İlahi, necə eşqdir?
Şəhidlərin bu eşqi.
Şəhidlər bu eşq ilə
Dünyaların dəyişdi.

Vətənin qara günü,
Eşqləri çıraq oldu.
Vətənin övladları
Vətən qoynuna doldu.

Vətəndən özgə heçnə,
Şəhidlər düşünmədi.
Başqa duyğu o qəlbin
Vətən eşqin bölmədi.

Can verdilər şəhidlər,
Müqəddəs eşq uğruna,
Əbədi çevrildilər
Vətənin qüruruna.

25.08.2020





## AZƏRBAYCAN TORPAĞI

Köksünə sığınanda
Ruhum rahatlıq tapır.
Hər ovuc torpağında
Minlərlə şəhid yatır.

Sinən üstə düzülüb,
Məzarlar mirvari tək.
Ay vətən, çox övladın
Torpağını öpəcək.

Azərbaycan torpağı,
Sən müqəddəs ocaqsan.
Şəhidlər uyuduğu
Bir beşiksən, qucaqsan.

Səndən ilham alanlar,
Sənin kimi ucalır.
Eşqin düşən ürəklər
Eşqin ilə qocalır.

Bu sevginin yolunda,
Qurban olub neçə can.
Biz ölüb dirilərik
Sən yaşa Azərbaycan.

Vətən, sən var ol deyə,
Varlığımdan keçərəm.
Mən də şəhidlər kimi
Şəhadəti seçərəm.

## MÜNDƏRİCAT

ÖN SÖZ....3
MÜƏLLİFDƏN....5
ALIN MƏNİ DÜNYANIZA....6
ŞƏHİD SEVGİSİ....7
VƏTƏNSİZLƏMİŞƏM....9
ŞƏHİDLƏR....10
BƏLKƏ SİLAHLAR DA SUSA....11
YAŞASIN AZƏRBAYCAN....12
ALLAHA UCALANLAR....13
NAKAM QALAN HƏYATLAR....14
«ŞƏHİD» SÖZÜ....16
QURBAN OLUM AY ANA....18
ŞƏHİD ATASI....19
İMİŞLİ TORPAĞININ ŞƏHİD ÖVLADLARI....20
TARİXDƏN SİLİNMƏZ İLHAMIN ADI....22
TARİX YAZDIN QAN İLƏ....24
ƏBƏDİYAŞAR....26
MƏZARINI ZİYARƏTƏ GƏLMİŞƏM....28
NƏCMƏDDİN ADLI DƏRDİM....29
MƏZARINDA İLK YAŞIN....30
ŞEİR AŞIQIYDI BİR DASTAN OLDU....32
ŞƏHİD VƏTƏN DEMƏKDİR....33
VƏTƏNİN ÖVLADI....35
SEL ALIB ELİMİ....36
ŞƏHİD VƏTƏN DEMƏKDİR....37
VƏTƏN QƏHRƏMANI....38





BİR QAZI XANIMI, ŞƏHİD ANASI....40
ŞƏHİD QARDAŞI....41
İKİ DAMLA GÖZ YAŞI....42
ŞƏHİDİMİN BALASI....45
KÖNÜL YARAM....46
ŞƏHİDLƏR YAŞAR ƏBƏDİ....48
AZADLIQ MÜJDƏÇİSİ....50
HAQQIN HAYQIRAN SƏSİ....51
VƏTƏNƏ DOĞAN GÜNƏŞ....52
ŞƏHİD ANA, ŞƏHİD OĞUL....53
VƏTƏN FƏDAİSİ....54
QƏHRƏMANLIQ SALNAMƏSİ....56
QİSAS ALAN ŞƏHİDİM....57
MÜBARIZIM....58
ADIN BİR SƏLTƏNƏTDİR....59
CƏNNƏTDƏN GƏLƏN QONAQ....61
TARİXDƏ TARİX TƏK YAŞAYACAQSAN....62
ÖZ BƏXTİMƏ DƏYDİ GÖZÜM....64
MƏĞRUR QƏHRƏMAN....66
TARİX YAZAN QƏHRƏMAN....68
ANA HİMN OXUYUR AĞILARINDA....70
ÖRNƏKDİR VƏTƏN EŞQİN....72
YOX OLUŞU VARLIĞININ ÖZÜDÜR....74
TORPAĞA CAN VERƏNİM....76
YUXUMDA ŞƏHİD TOYUDUR....77
DƏNİZ GÖZLÜ ŞƏHİDİM....78
BAXIŞIM DİKİLDİ BAXIŞLARINA....79
SƏNSİZ «AĞLAYAN» İLLƏR....80
QANLA YAZDIN ADINI....82

TABUTA SIĞMAYAN ŞƏHİD........................................84
ŞƏHİD DİLSUZ........................................86
ŞƏHİDİN İZİ........................................87
VƏTƏN SƏMASINDA TAPŞIRDI CAN........................................89
BƏY OTAĞIN BOŞ QALIB........................................90
ARZUSU TALAN OĞUL........................................92
VƏTƏNİN DƏRDİN DUYAN........................................93
VƏTƏNİ NAMUS BİLƏN........................................94
ŞƏHİD QOXULU ANA........................................96
QƏLB QOVURUR ARZULAR........................................97
VƏTƏN UĞRUNDA........................................99
TORPAĞI VƏTƏN ETDİ........................................101
ŞƏHİD OLMAĞI BİR ŞƏRƏF SANDIN........................................103
ŞƏHİD YARIM........................................105
BİR OVUC VƏTƏN........................................106
ANA FƏRYADI........................................107
XALQIN İGID MÜHÜDÜ........................................109
ŞƏHİDİN VƏTƏN EŞQİ........................................111
OĞULSUZ QALAN ANA........................................114
QİSASIN ALAN ŞƏHİDİM........................................115
QANI TORPAĞIMA ÇİLƏNƏN ŞƏHİD........................................117
YAŞADACAQ TARİX........................................119
İKİ MƏZARLI ŞƏHİD........................................121
CƏNNƏT SAKİNİ........................................123
ŞƏHİD ANASI........................................124
VƏTƏNİN ŞƏHİD OĞLU........................................125
SUSUB BAXIŞLARIN........................................127
VƏTƏNİN OĞUL PAYI........................................129
SINIQ AYNA........................................131





ŞƏHİDİMİN «LALƏZAR»I........................................133
TARİX YAZAN QƏHRƏMAN........................................134
ŞƏHİD EMİN........................................136
ŞƏHİD MİKAYIL........................................138
RUHU NİGARAN ŞƏHİD........................................140
DƏRDİN BÖYÜKDÜR QARDAŞ........................................142
MAHİR ADLI HƏSRƏTİM........................................143
QƏM PAYI........................................145
ARZUSU QALAN OĞUL........................................147
ELİN ŞƏHİD BALASI........................................149
ALDIN VƏTƏN QİSASINI........................................151
XALQIM MİNNƏTDAR SƏNƏ........................................153
SƏRXANIM........................................154
VƏTƏN EŞQİ........................................155
ŞƏHİD ÖMƏR........................................156
UNUDULMAYACAQSAN........................................157
BOŞ QALDI YERİN........................................159
RAHİB DEYİB AĞLARAM........................................160
SƏNSİZLİK........................................162
BEŞ İGİD........................................164
ÖRNƏK QƏHRƏMAN........................................165
QORXMAZ İNSAN........................................167
NAKAM ÖMÜRLÜM........................................168
ŞƏHİDİM ANAR........................................169
KƏDƏR ÖRPƏKLİ ANA........................................171
ŞƏHADƏTDİR AMALIM........................................173
VƏTƏN SEVDALISI........................................175
ŞƏHİD QARDAŞIM........................................176
AZƏRBAYCAN AŞIQI........................................178

QƏLBDƏ YAŞAR ŞƏHIDIM....180
VƏTƏN OĞLU....182
YARIMÇIQ ÖMÜR SƏHİFƏSİ....183
ŞƏHİD ALLAHVERDİ....185
VÜQARLI ŞƏHİDİM....187
ŞƏHİD ARAZ....189
DOYMADIM ANAMDAN....191
TOYSUZ GEDƏN ŞƏHİDİM....192
ŞƏHİDIN VAR EY VƏTƏN....194
ON ALTINCI BAHAR....195
ZƏHRA....197
GÖYLƏR ŞAHİNİ....199
QAZİMİZ ŞƏHİD OLDU....201
ŞƏHİD DƏRDİ....203
ŞƏHİDLƏR....204
ŞƏHİD ƏBƏDİYYƏTƏ, QAZİ BƏŞƏRİYYƏTƏ....205
VƏTƏNƏ CAN VERƏNLƏR....206
ADINI YAŞADACAM....208
KƏLBƏCƏRİN ƏRƏNİ....210
VƏTƏNİN ÖZÜ....212
CƏNNƏT SAKİNİ....214
XINAN QANLA QARIŞDI....215
ŞƏHİD ANASI....217
TORPAQDA ŞƏHİD QAN QATIB....218
BOYNU BÜKÜK QƏRƏNFİL....219
ŞƏHİDİM VAR....220
YANDIRDIN QƏLBİMİ ŞƏHİD ATASI....221
SAĞALMAZ ŞƏHİD YARAM....222
ŞƏHİD QOXAN ANALAR....223





HƏSRƏT ÇƏKƏN QIZCIĞAZ....225
SƏNSİZLİK YAĞIR....226
BAYRAĞA BÜKÜLƏN....227
ŞƏHİD BALASI....228
ÜMİDİ SOLAN GƏLİN....229
APREL ZƏFƏRİ....230
ŞƏHİD DEYİB AĞLARAM....232
DƏRD BÖYÜDƏN KÖRPƏLƏR....233
ƏLACSIZ ŞƏHİD DƏRDİM....234
AĞLAR QALAN ANALAR....235
ŞƏHİD EŞQİ....236
AZƏRBAYCAN TORPAĞI....237

Yığılmağa verilmiş 08.08.2020
Çapa imzalanmışdır 21.09.2020
Şərti çap vərəqi 15.5
Format 60X84 1/16
Tirajı 250





Kitab "ORXAN" Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

"ORXAN" NƏŞRİYYAT VƏ POLİQRAFİYA
MÜƏSSİSƏSİNİN
DİREKTORU: CƏFƏR ƏZİZOĞLU





Ünvan: Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Tel:(+99412) 562 83 03

Qeyd üçün

115985
00000000267621



*...Beləcə cənnəti şəhid ətri bürüdü. Vətəni şəhid qoxusu bürüyən kimi... Vətən torpağına damlayan hər damla şəhid qanı cənnət qapısının açarı oldu. Vətən uğrunda canından keçən qəhrəmanlar şəhadət zirvəsinə ucaldıqları kimi Azərbaycan bayrağını da bəşəriyyətin ən uca məqamı olan şəhid məzarlarında ucaltdılar.*

